İnsanlar içərisində eləsi də vardır ki, nadanlığı üzündən (tutduğu işin günahını anlamadan xalqı) Allah yolundan (islam dinindən) döndərmək və bu minvalla onu məsxərəyə qoymaq üçün mənasız (oyun-oyuncaq) sözləri satın alarlar. Məhz belələrini alçaldıcı bir əzab gözləyir.

*(Qurani-Kərim, Loğman, 6)*

## AŞPA Azərbaycanla bağlı qətnamə layihəsini qəbul etdi

Yanvarın 26-da Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının plenar iclasında deputat Milisa Markoviçin "Azərbaycanın sərhədyanı ərazilərində yaşayan əhali qəsdən sudan məhrum edilib" adlı məruzəsi qəbul olunub. Məruzəyə ümumilikdə 21 əlavə və dəyişiklik təklif olunub. Əlavə və dəyişikliklərin çoxu ermənilər tərəfindən təklif edilib.

Onlar məruzənin məzmununu dəyişdirərək öz xeyirlərinə yumşaltmağa çalışsalar da, təklif etdikləri əlavə və dəyişikliklər müzakirədən keçməyib. Sonda məruzə səsə qoyulub və 98 deputat lehinə, 71 deputat əleyhinə olmaqla qəbul edilib.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (294) / YANVAR 2016-cı il



**Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək...**

səh. 3

**"Holokost və Xocalı - müasirlərin gözü ilə" mövzusunda "dəyirmi masa" keçirilib**

səh. 5




**Mübariz Qurbanlı: 20 Yanvar ölkəmizin azadlığı uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq salnaməsi kimi daxil oldu**

səh. 7




*BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR*

**QUBA**

səh. 10-11




səh. 15





2015-ci ildə dünyada iqtisadi böhran daha dərinləşmişdir. Dünya iqtisadiyyatı hələ ki böhrandan çıxa bilmir. Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumunda iştirak edərkən bir daha bunun şahidi oldum ki, hələlik dünya iqtisadiyyatı ağır vəziyyətdə qalacaq. Buna baxmayaraq, 2015-ci ildə Azərbaycanda bir çox məsələlər öz həllini tapmışdır. İlin əvvəlində nəzərdə tutduğumuz bütün vəzifələr icra edilmişdir. O qədər də asan olmayan geosiyasi vəziyyəti və dünya iqtisadi böhranını nəzərə alsaq, əlbəttə ki, bu, bizim böyük uğurumuzdur. Çünki bizim bölgəmizdə qanlı toqquşmalar, müharibələr davam edir, yeni qarşıdurma ocaqları yaranır. Avropada həm iqtisadi böhran yaşanır, eyni zamanda miqrantlarla bağlı vəziyyət gərginləşir. Öz evlərini, yaxınlarını, əmlakını itirmiş insanlar Avropaya pənah gətirirlər və onları orada nələrin gözlədiyi hamımızın gözü qarşısında baş verir. Əfsuslar olsun ki, bu miqrant böhranı Avropada radikal qüvvələrin güclənməsinə gətirib çıxarır. Bu da həm Avropa üçün, həm bizim üçün, həm də dünya üçün çox böyük təhlükədir.

Azərbaycan uzun illərdir ki, dinlərarası, sivilizasiyalararası dialoqun güclənməsində öz rolunu oynayır. Ancaq əfsuslar olsun ki, biz dünya miqyasında dialoq əvəzinə qarşıdurma, anlaşılmazlıq, ədavət görürük.

Yəni, budur iqtisadi və geosiyasi vəziyyət. Bölgədə və dünyada yaşanan bu vəziyyət əlbəttə ki, bizi narahat edir. Lakin, eyni zamanda, biz bu vəziyyətdə daha da fəal işləməliyik, öz siyasətimizi uğurla aparmalıyıq və ölkə qarşısında duran bütün vəzifələri icra etməliyik.

Hesab edirəm ki, Azərbaycan 2015-ci ildə də bütün istiqamətlər üzrə uğurlu inkişaf dinamikasını saxlaya bilmişdir. Bizim beynəlxalq nüfuzumuz böyük dərəcədə artmışdır. Keçən il mən 20 xarici səfər etmişəm - rəsmi və işgüzar səfər. Azərbaycana 15-dən çox xarici dövlət və hökumət başçısı səfər etmişdir. Bu, özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, Azərbaycan beynəlxalq aləmdə çox fəal rol oynayır və Azərbaycana dünyada çox böyük rəğbət var. Bunu mən hər dəfə xarici səfərlərdə olarkən görürəm. Bu dəfə Davos Forumunda iştirak edərkən bir daha gördüm ki, ölkəmizin siyasətinə, mövqeyinə, prinsipiallığına, əldə edilmiş uğurlarımıza çox böyük rəğbət, hörmət var. Azərbaycan bu gün dünya miqyasında böyük hörmətə malik olan ölkədir.

***Prezident İlham ƏLİYEV,***

***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nıtqindən***

*Bakı, 26 yanvar 2016-cı il*

## Prezident İlham Əliyev 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi haqqında Sərəncam imzalayıb

Dövlət başçısı İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Sərəncamda Nazirlər Kabinetinə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Prezidentə təqdim etmək tapşırılıb.

# Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edib

*Azərbaycanın pravoslav xristian icmasına*

**Hörmətli həmvətənlər!**

Sizi, eyni zamanda, Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, Azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz üzvləri olan xristian etiqadlı həmvətənlərimiz millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verərək ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edirlər.

**Əziz dostlar!**

İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan və hər il Azərbaycanda xüsusi coşqu ilə qeyd edilən Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu əziz gün ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət gətirsin.

**Bayramınız mübarək olsun!**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 yanvar 2016-cı il.*

# İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

ISESCO-nun 12-ci Baş Konfransı və İcraiyyə Şurasının 2015-ci ilin 23–27 noyabr tarixlərində keçirilmiş iclasında Azərbaycan növbəti üç il müddətinə Baş Konfransın sədri seçilmişdir. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinə İslam aləmində verilən yüksək qiymət kimi təqdirə layiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ISESCO Baş Konfransına sədrliyin uğurla həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, ISESCO ilə əməkdaşlığı səmərəli şəkildə əlaqələndirmək məqsədilə qərara alıram:

1. ISESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası aşağıdakı tərkibdə yaradılsın:

*Komissiyanın sədri*

**Əbülfəs Qarayev** – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

*Komissiyanın üzvləri*

**Nadir Hüseynov** – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

**Firudin Qurbanov** – Azərbaycan Respublikası təhsil nazirinin müavini

**İntiqam Babayev** – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

**Rauf Hacıyev** – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

**İsa Həbibbəyli** – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

**Aynur Sofiyeva** – Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

**Səyyad Salahlı** – Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini

**Dağbəyi İsmayılov** – Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) baş direktorunun müavini

**Urxan Ələkbərov** – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

**Vasim Məmmədəliyev** – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2016-cı il.*

# Bakıda Milad bayramı münasibətilə qəbul təşkil olunub



Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası Milad bayramı münasibətilə qəbul təşkil edib. Qəbulda çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Milad bayramı münasibətilə təbriklərini çatdırıb. O, Milad bayramının Azərbaycanda yüksək səviyyədə keçirildiyini, bu bayramda hazırda müasir dünyamız üçün mühüm aktuallıq kəsb edən sülhə çağırışın olduğunu vurğulayıb.

Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində bütün dünyaya nümunə olduğunu bildirən arxiyepiskop deyib ki, multikulturalizm ölkəmizdə dövlət siyasətinin tərkib hissəsidir. Prezident İlham Əliyevin Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlamasını yüksək qiymətləndirən Aleksandr ölkəmizdə tolerantlığın yaşayış tərzi olduğunu vurğulayıb. O, Azərbaycanda müxtəlif millətlərə və dinlərə mənsub insanların sülh şəraitində yaşadıqlarını bir daha diqqətə çatdırıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev Prezident İlham Əliyevin Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubunu oxuyub.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin təbrik məktubu oxunub.

Tədbirdə Dədə Qorqud Fondunun rəhbəri, "Azərbaycan dünyası" beynəlxalq jurnalının baş redaktoru Eldar İsmayılov bildirib ki, Dədə Qorqud Fondu Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopunu "Vətən övladı" ordeni ilə təltif edib. O, ordeni arxiyepiskop Aleksandra təqdim edib.

Daha sonra Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin rəhbəri Valentin Denisov mərkəzlə əməkdaşlıqda göstərdiyi fəallığa görə Azərbaycan Dövlət Rus Dram Teatrının direktoru Ədalət Hacıyevə Fəxri fərman təqdim edib.

Sonda Moskva və bütün Rusiya Patriarxının qərarı əsasında "İnterfaks-Azərbaycan" informasiya agentliyinin baş direktoru Aleksandr İvanova Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Şöhrət" və "Şərəf" medalı təqdim olunub.

# AMEA-nın nəzdində multikulturalizm üzrə yeni mərkəz yaradılacaq

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nəzdində Multikulturalizm problemləri üzrə institutlararası elmi tədqiqat virtual mərkəzi təsis ediləcək.

Rəyasət Heyətinin qərarı ilə AMEA-nın nəzdində Multikulturalizm problemləri üzrə institutlararası elmi tədqiqat virtual mərkəzi təsis ediləcək. 2016-cı ildə AMEA, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun iştirakı ilə "Dünya multikulturalizm modelləri" mövzusunda lektoriya təşkil olunacaq. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi ilə birgə "Multikulturalizm ensiklopediyası" hazırlanacaq. Bundan əlavə, akademiyada fəlsəfə doktoru və elmlər doktoru hazırlığı proqramları çərçivəsində elmi fəaliyyətlə məşğul olanlara multikulturalizm üzrə elmi tədqiqat mövzularının verilməsi nəzərdə tutulub.

Rəyasət Heyətinin yanvarın 27-də keçirilən iclasında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev "Multikulturalizmin elmi-nəzəri əsasları və Azərbaycan reallığında inkişaf perspektivləri" mövzusunda məruzə ilə çıxış edib.

Dövlət müşaviri ölkədə multikulturalizmin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildiyini və bu sahədə uğurlu siyasətin aparıldığını bildirib.

Akademik multikultural təhlükəsizliyin əsasını təşkil edən istiqamətlərdən bəhs edərək deyib ki, hər bir ölkə öz enerji, iqtisadi və milli təhlükəsizliyini qorumaqla yanaşı, multikultural təhlükəsizliyini də təmin etməlidir. "Multikultural təhlükəsizliyin ümumi mahiyyəti etnik, dini, irqi, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması deməkdir".

K.Abdullayev bildirib ki, ölkə daxilindəki müxtəlif konfessiyalara siyasi münasibətin bərabər şəkildə yönəldilməsi, ölkədə milli müxtəlifliyin qorunmasına dövlət qayğısının göstərilməsi, ölkədə yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin mühafizəsinə dövlət və cəmiyyət tərəfindən dəstək verilməsi multikulturalizmin əsas prinsipləridir.

# Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək...



**KAMAL ABDULLAYEV,**
*Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik*

Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Ölkə Prezidenti İlham Əliyevin Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar dövlət qurumları, siyasətçilər, hökumət adamları ilə yanaşı, hər bir vətəndaşımızın üzərinə şərəfli vəzifə qoyur.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti də 2015-ci ildə fəaliyyətini dövlət başçısının daxili və xarici siyasətdə göstərdiyi konkret hədəflərə çatmaq istiqamətində qurub. İl ərzində ölkəmizdə yaşayan milli azlıqların hüquq və azadlıqlarının dövlət təminatı, dövlətdin münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun şəkildə tənzimlənməsi, Azərbaycan multikulturalizminin dövlət siyasəti kimi ölkə daxilində və xaricdə təbliği, multikultural ənənələrin qorunması və müasir dövrün tələblərinə uyğun şəkildə inkişafı üçün Xidmət ardıcıl ideoloji-siyasi, həmçinin praktik fəaliyyət göstərib.

Qanunvericiliyimizdən və Azərbaycan multikulturalizminin özəl prinsiplərindən irəli gələrək icra edilən din siyasəti və ölkəmizdə yaşayan azsaylı xalqların, toplumların mədəniyyət nümunələrinin qorunması, hüquqlarının ali təminatı istiqamətində görülən işlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xidmət müəyyən layihələr həyata keçirib.

### Azərbaycan multikulturalizmi dünyanın müxtəlif ölkələrində

Xidmətin təşəbbüsü və dəstəyi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu gün dövlət siyasətinin vacib istiqamətlərindən biri olan Azərbaycan multikulturalizminin dünya ölkələrində təbliğini ən müxtəlif formalarda qurmağa çalışır.

İlk olaraq Xidmət tərəfindən "Multikulturalizmə giriş" (bakalavr pilləsi), "Azərbaycan multikulturalizmi" (magistr pilləsi) fənləri üzrə tədris proqramları hazırlanıb. Bununla paralel bu fənni xarici dillərdə tədris edəcək müəllimlərin hazırlıq prosesi başlanıb. Qısa zaman kəsiyində bu fənn ölkəmizin 20 ali təhsil ocağında və 11 xarici ölkə universitetində tədris olunub. Onların sırasında Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan), İvan Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (Gürcüstan), Ural Federal Universiteti (Rusiya Federasiyası), Litva Pedaqoji Universiteti (Litva), Praqa Karl Universiteti (Çexiya), Roma Sapienza Universiteti (İtaliya), Belarus Dövlət Universiteti (Belarus), Lusafona Universiteti (Portuqaliya), Ausburq Universiteti (Almaniya), Frayburq Universiteti (İsveçrə) və Sakarya Universitetini (Türkiyə) və başqalarını göstərmək olar. Bu universitetlərdə "Azərbaycan multikulturalizmi" fənni həm azərbaycanlı, həm də xarici müəllimlər tərəfindən tədris edilib.

Sülh və dostluq şəraitində yaşamın dünya üçün yeni modeli olan Azərbaycan multikulturalizmi xarici ölkələrdə təkcə universitetlərdə deyil, eyni zamanda müxtəlif təşkilatlarda kollokviumlar, seminarlar, "dəyirmi masa"lar formatında da təqdim edilib. Bu təqdimatlar Londondakı BBC-nin qərargahından tutmuş İndoneziyanın Coqyakarta şəhərindəki Ahmad Dahlan Universitetinə qədər olan geniş coğrafiyanı əhatə edib.

Azərbaycan mədəniyyətini, tarixini, dilini, ədəbiyyatını, iqtisadiyyatını, müasir ictimai-siyasi durumunu özündə kompleks şəkildə birləşdirən "Azərbaycan multikulturalizmi" fənni eyni zamanda ölkəmizdə, özəlliklə, texniki peşələr və dəqiq elmlər təmayüllü universitetlərdə, institutlarda və xüsusi tipli təhsil ocaqlarında tədris olunmağa başladı və bu gün də davam etməkdədir.

Bu istiqamətdə real ənənələri olan Bakı Slavyan Universitetində ölkədə ilk olaraq "Azərbaycan multikulturalizmi" kafedrası yaradıldı və fəaliyyəti təmin edildi.

### Azərbaycana maraq Azərbaycana məhəbbətə necə çevrilir?!

Keçən yay xarici ölkə universitetlərində və ölkəmizdəki təhsil ocaqlarında "Azərbaycan multikulturalizmi" fənnini yüksək qiymətlərlə başa vuran tələbələr "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş" devizi altında təşkil olunan yay məktəbinə dəvət olunmuşdular. Xarici tələbələrin bu fənni seçməklə Azərbaycana göstərdikləri maraq ölkəmizi gəlib gördükdən və buradakı reallığın həqiqi şahidləri olduqdan sonra Azərbaycana məhəbbətə çevrildi. Bakıda, Qubada, Qusarda, Xaçmazda gördükləri multikultural əhval və insanlara sevgi, dostluq hissləri ilə dolu həyat onlarda Azərbaycanla bağlı dərin təəssüratlar yaratdı. Onlar bu gün öz ölkələrində Azərbaycanın yeni dostları, Azərbaycanın maraqlarını müdafiə edəcək şəxslər və daima ölkəmizə məhəbbətlərini izhar edən gənclərdir. Onlar Azərbaycana qarşı baş verən istənilən ədalətsizliyə anında sərt reaksiyalar verir və Azərbaycan reallığının ölkəmizə qarşı ikili standartlar sərgiləyən dövlətlərin və beynəlxalq təşkilatların hesabatlarında təqdim edilən şəkildə olmadığı fikrini başqaları ilə bölüşür və bütün bunları dönə-dönə ifadə etməkdən çəkinmirlər. Onlar Azərbaycanı həqiqi dost kimi sevirlər. Bu yaxınlarda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəvəti ilə Los-Ancelesdəki Sinay sinaqoqunun 50 nəfər üzvü baş ravvin David Volpenin rəhbərliyi ilə Azərbaycana səfər etmişdi. Səfərdən sonra hörmətli David Volpe Amerikanın "Time" jurnalında Azərbaycana məhəbbət və heyranlıq dolu bir məqalə dərc etdirdi. Əslində, o, Azərbaycan həqiqətini Amerika oxucusuna çatdırmaq istəyirdi. Amma nə baş verdi?! Bu məqalə erməni lobbisinin haqsız hücumlarına məruz qaldı. Bu haqsız hücumların qarşısına isə biz azərbaycanlılardan əvvəl yay məktəbinin iştirakçıları olmuş gənclər çıxdı və onlar David Volpeni müdafiə etdilər. Həm öz ölkələrindəki media orqanlarında, həm də sosial şəbəkələrdə onların verdiyi reaksiya, əslində, bir azərbaycanlının verə biləcəyi reaksiya qədər səmimi və kəsərli idi.

### Milli mənsubiyyət – qürur, Azərbaycanlı olmaq – fəxarətdir

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib.

Xidmət bu il ərzində də ölkədə milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi, onların mədəni-mənəvi irsinin qorunması və dini etiqad azadlığının təminatı ilə bağlı yerli icra hakimiyyəti orqanları və digər dövlət strukturları ilə öz işini sıx şəkildə qurdu. Milli azlıqların dil və mədəniyyətinin qorunub saxlanması və inkişafı, onlara məxsus milli özünəməxsusluğun, adət-ənənələrin gələcək nəsillərə çatdırılması, eyni zamanda onların sıx yaşadığı bölgələrdə Azərbaycanın dövlət müstəqilliyinin və azərbaycançılıq ideyalarının təbliği, hərbi vətənpərvərlik, vahid dövlətçilik, vətənə sədaqət hisslərinin gücləndirilməsi istiqamətində müvafiq dövlət qurumları və azlıqların milli mədəni təşkilatları ilə birgə ardıcıl fəaliyyət həyata keçirdi. Xidmətin təşəbbüsü ilə fəaliyyətə başlayan "Kultura+" internet televiziyasında milli azlıqların dil və mədəniyyətinin qorunub saxlanması üçün müxtəlif verilişlər və milli azlıqların dillərinin virtual tədrisini həyata keçirən proqramlar hazırlandı və kultura-plus.az saytında yerləşdirildi. Həmçinin bu saytda Azərbaycanın xaricdəki dostları öz dillərində Azərbaycana məhəbbətlərini ifadə etdilər və bu xoş sözlər dünyanın bir çox ölkələrində izləndi. "Kultura+" vasitəsilə bu gün ən uzaq ölkələrdə belə Azərbaycanın multikultural durumu barədə real təsəvvür yaranmaqdadır.

### Xınalıqdan Çinədək

Prezident İlham Əliyevin bu ilin əvvəlində imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi" ilə bağlı xüsusi Sərəncam təkcə bu dastanı deyil, həm də Azərbaycan mədəniyyətini, ədəbiyyatını, tarixini dünya elm adamlarının və gəncliyinin bir daha diqqət mərkəzinə çevirdi. Bir daha bu Sərəncamın işığında Fransa, Almaniya, İngiltərə, ABŞ, Portuqaliya, Rusiya, Türkiyə, İtaliya və başqa ölkələrdə Azərbaycan mədəniyyəti bir daha dünya ictimaiyyətinə təqdim olundu. Və məhz ölkə başçısının böyük uzaqgörənliklə imzaladığı bu Sərəncam sayəsində görkəmli alman şərqşünas alimi və diplomatı Henrix Fridrix fon Ditsin 200 il əvvəl Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı qələmə aldığı çox dəyərli fikirlər və "Dədə Qorqud" dastanının "Basat" boyu bir kəndin dili olan Xınalıq dilindən, yüz milyonların dili olan Çin dilinə qədər geniş bir coğrafiyaya yayılmış oldu. Kitab Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən Azərbaycan, türk, alman, ingilis, fransız, rus, Çin, yapon, hind, ərəb, fars, yunan, yəhudi, gürcü, erməni, macar, italyan, Ukrayna və başqa dillərdə çap edildi.

Bu Sərəncamdan ölkəmizdə yaşayan milli azlıqlara da sevinc dolu bir pay düşdü. Çünki qeyd edilən kitab eyni zamanda talış, tat, udi, ləzgi, kürd və Xınalıq dillərinə də tərcümə edilərək çap edilmişdi. Beləliklə, hər bir Azərbaycan vətəndaşı ümumi ana kitabımız "Dədə Qorqud"u indi öz dilində oxuyur.

### Hər qarışında Qorqud izi

Xidmət öz fəaliyyətində Prezident İlham Əliyevin şəxsi nümunəsini əsas götürərək, təkcə paytaxtda deyil, bölgələrimizdə yaşayan insanlarla birbaşa sıx ünsiyyət qurub. Xidmət əməkdaşları bu il ərzində Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ölkəmizin əksər bölgələrində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə çoxsaylı yerli əhalinin qatıldığı müxtəlif tədbirlərdə iştirak edib. Biz "Dədə Qorqud" dastanının ölkəmizin müxtəlif guşələrinə səpələnmiş izlərinə düşüb Xocavənd-Nərgiztəpə, Ağdam, Füzuli, Tərtər, Tovuz, Qazax, Quba, Qusar, Zaqatala, Qax, Balakən, Lənkəran, Yardımlı, Zərdab, Göyçay, Şamaxı, Qəbələ, Şəki və başqa rayonlarımızda yerli məktəblilərin, ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə saysız-hesabsız tədbirlər təşkil etdik. Bu tədbirlərdə malakanlar ingiloyların, ləzgilər talışların, saxurlar, axısxa türklərinin, həmçinin bakılılar, tovuzluların, ağdamlılar qubalıların, qazaxlılar şəkililərin, astaralılar maştağalıların evlərində qonaq qaldılar. Hər yerdə Azərbaycançılıq məfkurəsi hökm sürdü. Bu məfkurənin əsl təntənəsi baş verdi. Və bütün bunlar əsl qardaşlıq və vətəndaşlıq nümunəsinə çevrilirdi.

### Qafqaz Albaniyasının renessansı

Akademik Ramiz Mehdiyevin öz əsərlərində dəfələrlə erməni fitnəsi və saxtakarlığına qarşı ortaya qoyduğu prinsipial elmi mövqe və bədxahlarımızın əsassız iddialarını elmi-tarixi mənbələr əsasında puça çıxarması Dövlət müşavirliyi xidmətinin işində də yeni istiqamətin meydana gəlməsinə vəsilə oldu. Erməni yalanlarını üzə çıxaracaq qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tarixini təkcə yerli və bölgə əhəmiyyətli mənbələr əsasında deyil, xarici ölkə alimlərinin fikirləri, şərhləri və tərtib etdikləri tarixi arayışlar, xəritələr əsasında sistemli tədqiq etmək və bunu beynəlxalq elmi ictimaiyyətin

⇨ 4

# Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək...

3 ⇦ diqqətinə çatdırmaq ötən il Xidmətin əsas işlərindən biri oldu. Bu məqsədlə bölgələrimizdəki Qafqaz Albaniyasına məxsus abidələrin tədqiqinin əsl renessansı başladı. Ermənilərin əsassız Qarabağ iddialarına öz varlığı ilə böyük zərbə vuran qədim Bərdə İmamzadəsi təmir və bərpa olunaraq yenidən insanların istifadəsinə verildi. İmamzadə təkcə dini sitayiş yeri kimi deyil, həm də özündə zəngin tarixi izləri qoruyub saxlayan bir muzey kimi də insanların üzünə öz qapılarını açdı. Bu abidələr məktəblilərin ziyarət edəcəkləri tarixi məkanlara çevrildi. Çünki onlar real olaraq Azərbaycan tarixinin müəyyən səhifələrini yaşadırdılar. Təsadüfi deyil ki, elə buna görə də təkcə ölkəmizdə deyil, xaricdə, məsələn, İtaliyada albanşünasların iştirakı ilə bu istiqamətdə müxtəlif konfranslar, "dəyirmi masa"lar və ictimai müzakirələr keçirildi. "Kultura+" internet televiziyası burada da öz missiyasını yerinə yetirdi. Bu internet TV-də erməni yalanlarını ifşa edən sanballı verilişlər və sənədli filmlər hazırlandı. Və bu iş bu gün də Azərbaycan və xarici ölkə ziyalıları tərəfindən davam etdirilir.

### *İstinad yerimiz – qaynaqlar*

Dövlət başçısı İlham Əliyev dəfələrlə öz çıxışlarında vurğulayır ki, multikulturalizm Azərbaycanda tarixən olub və bu gün də var. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Bu mənada Xidmətin təşəbbüsü ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Azərbaycan Milli Elmlər Akademiyasının və ölkə universitetlərinin mütəxəssislərinin birgə iştirakı ilə "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi qaynaqları" adlı monoqrafiyalar hazırlanır. Təbii ki, adı çəkilən əsərlərlə bu iş bitməyəcəkdir. Əslində, son dərəcə faydalı və zəruri bir elmi nəşr seriyası işıq üzü görməkdədir. Onun müxtəlif dillərə tərcüməsi, yeni-yeni mahiyyətlər və istiqamətlərlə zənginləşdirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Xidmətin intellektual dəstəyi ilə "Azərbaycan Multikulturalizmi" adlı dərsliyin hazırlanması işinə də start verilib. Bu dərslik həm xaricdə, həm də Azərbaycanda "Azərbaycan multikulturalizmi" fənnini öyrənən tələbələr üçün xüsusi bir əhəmiyyət daşıyan vəsait olacaq. Onu da qeyd etmək istərdim ki, bu dərsliyin səhifələrində eyni zamanda xarici mütəxəssislər də öz ölkələrindəki multikultural dəyər və əhvalı vətənimizdəkilərlə müqayisə etmək imkanına malik olacaqlar. Məsələn, bu müqayisəli prinsip alman, italyan, rus, gürcü universitetlərində artıq həyata keçirilir. Bu halda hər iki ölkəni daha aydın şəkildə "görmək" üçün eyni baxış bucaqları formalaşır.

Azərbaycanda olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. Bu məqsədlə Xidmət tərəfindən hələlik 4 virtual "dəyirmi masa" təşkil olunub. "Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası", "Multikultural təhlükəsizlik", "Xarici ölkə universitetlərində "Azərbaycan multikkulturalizmi" fənninin tədrisi: problemlər və perspektivlər", "Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir (Azərbaycan multikulturalizmi yerli və əcnəbi tələbələrin gözü ilə)" mövzusunda olan bu "dəyirmi masa"ların materialları Azərbaycan, rus və ingilis dillərində dərc edilərək ölkə daxilində və xaricdə paylanıb. Virtual "dəyirmi masa"larda Braziliyadan, Amerikadan, İtaliyadan, Litvadan, Bolqarıstandan, Türkiyədən, Rusiyadan, Gücüstandan, Misirdən, İordaniyadan və başqa ölkələrdən tanınmış alimlər, ictimai xadimlər və tələbələr iştirak edib.

### *Portuqaliyadan İndoneziyaya qədər*

İl ərzində Azərbaycanda olan sabit və demokratik mühiti, insan haqlarının ali təminatını həzm edə bilməyən və öz qərəzli hesabatları, ölkəmizə qarşı ikili standartları ilə gündəmə gələn bəzi beynəlxalq QHT-lər və təşkilatlara da ölkəmizdəki milli azlıqların hüquqlarının qorunması və dini etiqad azadlığı sahəsində həyata keçirilən dövlət siyasəti haqqında yetəri qədər informasiyalar verilib. ATƏT-in İnsan Ölçüsü Komitəsinin Vyanada keçirilən iclasında "Tolerantlıq və qeyri ayrı-seçkilik: Azərbaycan təcrübəsi" mövzusunda ölkəmizdəki multikultural və tolerant mühit haqda Xidmət tərəfindən xüsusi təqdimat edilib. Ölkəmiz haqqında həqiqətləri öyrənmək üçün qərəzli məruzəçilər və bu təşkilatların nümayəndələri Azərbaycanı yaxından tanımaq və reallıqları öz gözləri ilə görmək üçün ölkəmizə dəvət edilib. Xidmətin həm təklikdə, həm də müxtəlif dövlət qurumları ilə birgə Almaniya, İsveç, İngiltərə, Gürcüstan, Rusiya, İtaliya, Türkiyə və başqa ölkələrdə təşkil etdiyi tədbirlər Azərbaycan multikulturalizmini dünyaya təqdim etməklə yanaşı, həm də Azərbaycan tarixini, mədəniyyətini, dövlətçiliyini və bu gün ölkəmizdə həyata keçirilən uğurlu daxili və xarici siyasəti dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Bu tədbirlərdə ürək genişliyi ilə ölkəmizin müsəlman, xristian, yəhudi konfessiyalarının rəhbərləri iştirak ediblər və şeyxülislam hacı Allahşükür Paşazadənin xaricdəki məclislərin birində tribunadan dediyi kimi müsəlmanların (həm sünni, həm də şiələrin), yəhudilərin, pravoslavların, katoliklərin və digər din və məzhəb nümayəndələrinin qardaş kimi yaşadığı Azərbaycan bir model kimi bu gün həqiqətən dünya üçün bir örnəkdir. Qeyd edim ki, dini liderin bu sözləri ilə razılaşmayanlar yox idi.

Belə bir özəl modelin yaranmasına səbəb isə müxtəlif dinlərə və onların nümayəndələrinə ölkə rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən yönəlmiş bərabər siyasi münasibətdir. Azərbaycanda heç bir səmavi dinin başqasından üstünlüyü olmadığı kimi, modelin başqa yaranma üsulu da yoxdur.

Bu gün Portuqaliyadan İndoneziyaya qədər ən müxtəlif ölkələrin universitetlərində, intellektual dairələrində və ictimai-siyasi qurumlarında Azərbaycan dəyərləri müzakirə edilir. Biz sual-cavabların içindəyik. Maraqlıdır ki, opponentlərimizə cavablar yavaş-yavaş daha çox xaricdəki Azərbaycansevərlər tərəfindən verilir. Onlar artıq püxtələşmiş və nə etdiklərini şüurlu şəkildə bilən intellektual qüvvələrdir. Ölkəmizin xeyirxahlarının sayı çoxalır, dostlarının sayı artır. İnanıram ki, onların səsi getdikcə daha aydın və məqsədyönlü şəkildə eşidiləcək. Bunun üçün Azərbaycandaxili mümkün olan və hətta mümkün olmayan koordinasiya məqamlarının gücünü artırmalı, məqsəd və vəzifələri daha aydın şəkildə qarşımıza qoymalıyıq.

Azərbaycan Prezidentinin dəqiqliklə göstərdiyi ideoloji hədəflərə doğru daha qəti addımlarla irəliləmək əzmindəyik.

# "Huffington Post": "Bakı – dialoqun və sülhün unikal vəhdəti"

**Amerikanın "Huffington Post" xəbər portalında incəsənət və ictimai fəaliyyət sahəsində tanınmış şəxslərdən olan Annett Blümün "Bakı – dialoqun və sülhün unikal vəhdəti" sərlövhəli məqaləsi yayılıb.**

Xatırladaq ki, ABŞ-ın Los-Anceles şəhərində yerləşən Simon Vizental Mərkəzinin Beynəlxalq Dinlərarası Münasibətlər üzrə məsləhətçisi Annett Blüm Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəvəti ilə ötən il mayın 18-19-da Azərbaycanın paytaxtında "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edib.

Məqalədə insanlar arasında ən nüfuzlu əlaqə vasitəsi və insanların qarşılıqlı fəaliyyətinin ən yaxşı modellərindən biri olan mədəniyyətlərarası dialoqun əhəmiyyətindən bəhs edilir.


Annette Blum
Activist in media and social action in the arts
Baku, A Unique Geopolitical Gathering of Dialogue and Peace

As Oscar Wilde once said: "Life imitates art far more than art imitates life." In fact, art as it is seen today can manifest in many forms and can represent the tangibility of our dreams or the conception and construction of something innovative and infinitely creative. A most profound example of this kind of artistic process is dialogue; a process of sharing and communication sometimes overlooked as a form of creativity, but perhaps the most prevalent and influential medium in existence. A testimony to the power of dialogue in art and innovation can be found at the intersection of art, social action and social justice; sectors that are working together across the globe and creating strategic alliances to impact change as understanding of these collaborations becomes more mainstream.

For activists, artists, and believers in the potential of dialogue as a mechanism for assisting world peace, understanding how this works on a global level is critical to impacting meaningful change. But how exactly does dialogue help us realize these



A.Blüm Bakıda keçirilmiş Ümumdünya Mədəniyyət-lərarası Dialoq Forumunda iştirakından söhbət açaraq yazır ki, onun Bakıya səfər etmək və Azərbaycanla daha yaxından tanış olmaq qərarı üç səbəblə bağlı idi. Müəllif qeyd edir ki, əvvələn, 1918-ci ildə müstəqilliyini elan etmiş Azərbaycanın bütün müsəlman aləmində ilk dünyəvi və demokratik dövlət olması faktı onun üçün maraqlı idi. İkincisi, həmin dövrdə regionda mühafizəkar və radikal ideologiyanın üstünlük təşkil etməsinə baxmayaraq, Azərbaycan 1919-cu ildə qadınlara seçki hüququ verib. Azərbaycan hökumətinin belə bir addımı Birləşmiş Ştatlarda qadınlara seçki hüququ verilməsindən bir il əvvəl atması Azərbaycan cəmiyyətində və ölkənin hakimiyyət orqanlarında qadınların mühüm rolunun göstəricisi idi. Nəhayət, bu səfərin üçüncü səbəbi müəllifin Azərbaycan ilə İsrail arasında çoxdan bəri yaranmış dostluq münasibətlərinə marağından irəli gəlirdi. Hər iki dövlət dinlərin və mədəniyyətlərin müxtəlifliyi kimi dəyərlərə sadiqdir. A.Blüm yazır ki, Azərbaycanda səfərdə olarkən Simon Vizental Mərkəzinin nümayəndəsi ravvin Kuper ilə birlikdə sinaqoqa gedib, orada Azərbaycan yəhudi icmasından olan dostları ilə görüşüb. Müəllif enerji sahəsində İsrail ilə əməkdaşlıqda Azərbaycanın mühüm rolunu, Azərbaycana texnologiyalar və xidmətlər sahəsində sərmayə qoyulmasında İsrailin rolunu da vurğulayır.

A.Blüm xalqlar arasında dialoqun və qarşılıqlı anlaşmanın əhəmiyyətindən söhbət açaraq yazır ki, nadir geosiyasi mövqedə yerləşən Azərbaycan bu regionda mövcud olan ekstremizmdən qoruna bilib. O qeyd edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə baxmayaraq, Azərbaycanın münaqişə zonasından kənarda yerləşən ərazilərində 30 mindən çox erməni dinc şəraitdə yaşayır. Müəllifin fikrincə, bütün bu amillər nəzərə alınmaqla Azərbaycan Respublikası həmin Forumun keçirilməsi üçün ən münasib yerdir. Forumda bu ölkənin həm dövlətdaxili, həm də beynəlxalq səviyyələrdə mədəniyyətlərarası harmoniyaya sadiqliyi aşkar görünürdü.

A.Blüm vurğulayır ki, Azərbaycan cəmiyyətin bütün təbəqələrində tolerantlığa sadiq olduğunu artıq sübut edib. Məsələn, Azərbaycan Ali Məhkəməsində və ölkə parlamentində müsəlmanlarla yanaşı, yəhudilər və xristianlar da işləyirlər. Müəllif sonda qeyd edir ki, Azərbaycanda dini və mədəni mənsubiyyətindən asılı olmayaraq bütün insanlar azad yaşayırlar və uğur qazanmaq üçün bərabər imkanlara malikdirlər.

Xatırladaq ki, Annett Blüm senator Dayenn Faynstaynın və amerikalı milyarder, "Blum Capital" investisiya şirkətinin prezidenti Riçard Blümün qızıdır.

# Holokost qurbanlarının xatirəsi yad edilib

***Hər il yanvarın 27-si BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş müvafiq qətnaməyə əsasən, Beynəlxalq Holokost Qurbanlarının Anım Günü kimi qeyd edilir.* Bununla əlaqədar yanvarın 26-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə bu ali məktəbdə "Holokost və Xocalı - müasirlərin gözü ilə" mövzusunda "dəyirmi masa" keçirilib.**




Anım tədbirində Bakıda fəaliyyət göstərən yəhudi icmalarının təmsilçiləri, Milli Məclisin deputatları, səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, yerli və xarici ölkə alimləri iştirak ediblər.

Tədbiri BSU-nun rektoru, professor **Asif Hacıyev** açaraq Azərbaycan və yəhudi xalq-larının oxşar taleyindən söhbət açıb, hər iki xalqın etnik mənsubiyyətinə görə soyqırımına məruz qaldığını bildirib. ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin **Abraham Kuper** bildirib ki, baş vermiş faciələri unutmaq yeni fəlakətlərə səbəb ola bilər, ona görə də xatırlayaraq irəliləmək lazımdır. Ravvin Azərbaycanın dünyaya ixrac etdiyi tolerantlıq ənənəsinin vacibliyini vurğulayaraq bunun alternativinin olmadığını söyləyib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik **Kamal Abdullayev** tədbir iştirakçılarını salamlayaraq onlara mərasimə qatılan Xocalı sakinlərini - faciənin şahidlərini təqdim edib: "Keçən əsrin 40-cı illərinin sonunda Holokostun nəticəsində hərbi düşərgədən azad edilmiş biçarə, ümidsiz yəhudiləri gözümüz önünə gətirək. Burada iştirak edən bizim həmvətənlərimiz də həmin cür konslagerdən çıxan, Xocalı adlı bir dəhşəti yaşamış insanlardır. Onlar bu tədbirə Holokost hadisəsini bu gün beyinlərində, qəlblərində yaşadan insanlara öz hörmətlərini çatdırmaq və öz səslərini onların səsinin yanında ucaltmaq üçün gəliblər. Azərbaycanlı təsəvvüründə Holokost və Xocalı qəribə bir şəkildə eyniləşir. Xocalıda da insanları məhz azərbaycanlı olduqlarına görə qətlə yetiriblər. Xocalıda da o insanların əlində silah yox idi. Bu gün dünyada insanların dini, siyasi, mənəvi azadlıq hüququ var. Amma ləyaqətli insanların bir hüququ da var: Xatırlamaq hüququ. Xocalını və Holokostu daim xatırlamaq və qəlbimizdə, beynimizdə yaşatmaq hüququ bizim gələcəyə gedən yolumuzu şəfqət, mərhəmət və bir-birimizə olan loyal, dözümlü münasibətə səsləyir. Biz Holokost haqqında eşitmişik. Xocalını bizim bəzilərimiz gözü ilə görüb, bəzilərimiz haqqında eşidib. Azərbaycanlı olaraq biz arzu edirik ki, belə hadisələr bir daha təkrarlanmasın.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməsi özü də Holokost və Xocalı kimi hadisələrə olan münasibət və bundan çıxış edərək dünyaya mərhəmət, şəfqət və tolerant mesajların göndərilməsidir. Bu gün Azərbaycan vətəndaşı Xocalı, Holokost kimi hadisələri özünün dünyagörüşünün bir komponenti etməklə haqqın, ədalətin, mərhəmətin, şəfqətin, dözümlülüyün yanında olduğunu bir daha sübut edir. Xatırlamaq hüququmuzu unutmayaq."

İsrailin Azərbaycandakı səfirinin müavini **Amir Rom** Holokost faciəsi zamanı milyonlarla insanın məhz yəhudi olduqları üçün genosid qurbanı olduqlarını qeyd edərək tolerant birgəyaşayışın alternativinin olmadığını deyib. O bildirib ki, irqçiliyə görə törədilən belə cinayətlər təkcə bir xalq üçün deyil, bütün bəşəriyyət üçün təhlükədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini **Səyavuş Heydərov** tariximizi dəyərləndirməyin və keçmiş faciələrimizdən dərs götürməyin vacibliyini vurğulayıb. Sədr müavini Azərbaycanın bu gün mənəvi sahədə böhran yadığı dünyaya özünün ali dəyəri olan multikulturalizm və tolerantlıq ixrac etdiyini bildirərək builki "Multikulturalizm ili" çərçivəsində genişmiqyaslı və çoxsaylı tədbirlərin keçiriləcəyini "dəyirmi masa" iştirakçılarının diqqətinə çatdırıb.

İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert **Arye Qut** tədbirin təşkilatçılarına təşəkkür edərək Holokost faciəsinin yəhudi xalqının ağrı, işgəncə və alçaldılma tarixi olduğunu qeyd edib.

Milli Məclisin deputatı **Asim Mollazadə** Azərbaycan xalqının və dövlətinin hər zaman yəhudi xalqı ilə Holokost ağrısını bölüşdüyünü diqqətə çatdırıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı **Məhsəti Əliyeva** Xocalı faciəsinin dəhşətlərindən bəhs edib: "Qarlı, şaxtalı qış gecəsində Xocalı sakinləri əllərində körpələrlə vəhşi heyvanlarla dolu olan meşəyə qaçmaqdan çəkinmədilər, çünki meşədəki vəhşilərdən daha vəhşi olan erməni quldurları onları məhz azərbaycanlı olduqlarına görə öldürmək üçün arxalarınca gəlirdilər". M.Əliyeva artıq dünyanın 11 ölkəsində, ABŞ-ın 16 ştatında Xocalı soyqırımının tanındığını, bu yaxınlarda Sloveniyada da bu məsələyə baxılacağını bildirib.

Xocalı rabitə qovşağının rəisi **Cavid Əliyev** hər dəfə Xocalı faciəsindən danışanda bu dəhşəti yenidən yaşadığını söyləyib. O, müasir dünyada sülhün bərqərar olması üçün Azərbaycanın tolerantlıq modelinin tətbiq edilməsinin vacibliyini vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru **Azad Məmmədov** bu cür tədbirlərin keçirilməsinin önəmli nəticələrinin ola biləcəyini deyib: "Birincisi, ədalətin bərpası üçün tribunallar qurula bilər ki, hərbi cinayətkarlar cəzalandırılsınlar və bundan sonra potensial cinayətkarlar da bundan çəkinsinlər. İkincisi, hər kəs bu faciələrdən dərs alsın".

"Dəyirmi masa" mövzu ətrafında müzakirələrlə davam edib.

* * *

**Yanvarın 27-də Bakıda Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar mərasim keçirilib.** Mərasimdə Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri **Gennadi Zelmanoviç** Azərbaycan və yəhudi xalqlarının oxşar taleyindən söhbət açıb, hər iki xalqın etnik mənsubiyyətinə görə soyqırımına məruz qaldığını bildirib. O, təəssüflə qeyd edib ki, dünya ictimaiyyəti ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasətinə hələ də layiqli qiymət verməyib. Ancaq tarix göstərir ki, şər qüvvələr nə vaxtsa mütləq öz cəzalarını alırlar.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev altı milyon günahsız insanın ancaq dini və milli mənsubiyyətinə görə qətlə yetirilməsinin dəhşətli hadisə olduğunu söyləyib.



Dövlət müşaviri deyib: "Keçən əsrin 40-cı illərinin sonunda Holokostun nəticəsində hərbi düşərgədən azad edilmiş biçarə, ümidsiz yəhudiləri gözümüzün önünə gətirək. Bu hadisələr hər zaman insanları çox təsirləndirəcək. Biz yəhudi xalqının, Azərbaycan yəhudilərinin və həmvətənlərimizin dərdini, qəmini dərindən anlayırıq. Əlbəttə ki, faciənin əhatə dairəsi böyük və ya kiçik olmur. Belə bir faciə Azərbaycan xalqının başına XX əsrin sonlarında gətirilib. Eyni şəkildə günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə Xocalıda qəddar insanlar tərəfindən qətlə yetirildilər.

Los-Ancelesdə yerləşən Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuper bu günlərdə Azərbaycana səfər etmişdi. O belə bir ifadə işlətdi: Bu insanları əllərində silah olduğuna görə öldürməyiblər. Onları hansısa qanunu pozduqlarına görə də öldürməyiblər. Onları düşünülmüş şəkildə, məhz yəhudi olduqlarına görə qətlə yetiriblər. Dünyanın ağıllı, ləyaqətli insanları eyni analogiyanı Holokost və Xocalı faciələri arasında apara bilərlər. Biz Xocalı faciəsini xatırlayarkən yəhudi həmvətənlərimizi həmişə öz yanımızda hiss etmişik. Eyni şəkildə biz də Holokostu xatırlayanda yəhudi həmvətənlərimizlə bir yerdəyik. İnsanların müasir dünyada söz, azadlıq hüquqları var. Bu hüquqlardan biri də xatırlamaq hüququdur. Holokostu və Xocalını unutmayaq!".

İsrailin Azərbaycandakı səfiri **Dan Stav** da Holokost faciəsi haqqında söhbət açıb. O, tolerant birgəyaşayışın alternativinin olmadığını deyib. Bildirib ki, irqçiliyə görə törədilən belə cinayətlər təkcə bir xalq üçün deyil, bütün bəşəriyyət üçün təhlükədir. Bu təhlükəni bir daha yaşamamaq, bundan yayınmaq üçün keçmişi unutmamaq və gələcəyimizi bu keçmişə nəzərən qurmaq lazımdır.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri **Daq Siqurdson** BMT-nin baş katibi Pan Gi Munun Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar müraciətinin mətnini oxuyub.

# Nardaranda dindarlarla görüş keçirilib

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 13-də Sabunçu rayonunun Nardaran qəsəbəsində olub, qəsəbənin "Rəhimə xanım" ziyarətgahında bir qrup dindar və ağsaqqallarla görüşüblər. Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevin də iştirak etdiyi görüşdə qəsəbədəki məscidlərdə dini fəaliyyətin təşkili və dini icmanın yaradılması istiqamətində məsələlər müzakirə olunub.



Görüşdə bildirilib ki, Nardaran qəsəbəsinin abadlaşdırılması, sosial-mədəni infrastrukturun yenilənməsi, qəsəbənin sosial problemlərinin həlli Prezident cənab İlham Əliyevin diqqət mərkəzindədir və aidiyyəti qurumlar bu istiqamətdə bütün lazımi tədbirləri görürlər. Eyni zamanda qeyd edilib ki, respublikanın bütün bölgələrindəki məscidlər kimi, Nardarandakı məscidlər də qanun çərçivəsində fəaliyyət göstərməlidir. Bunun üçün qəsəbədə dini icmanın yaradılmasına və məscidlərin fəaliyyətinə, eləcə də dini maarifçilik işinin aparılmasına hər cür kömək göstəriləcəkdir.

Nardarandakı məscidlərin qanun çərçivəsində fəaliyyət göstərməsinə tərəfdar olduqlarını deyən qəsəbədəki Cümə məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü Musa Qasımov və digər ağsaqqallar bu məqsədlə əllərindən gələn köməyi əsirgəməyəcəklərini bildiriblər. Onlar qeyd ediblər ki, dini icmanın yaradılması işinə artıq başlanılıb.

Görüşdə dini icmanın yaradılması prosesinin qısa vaxtda başa çatdırılması, dövlət qeydiyyatına alınması üçün zəruri sənədlərin Qafqaz Müsəlmanları İdarəsi vasitəsilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təqdim olunması və növbəti mərhələdə icma üzvləri ilə görüş keçirilməsi qərara alınıb. Həmçinin, Nardaran ağsaqqallarını maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Sumqayıtda “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda konfrans

**Yanvarın 26-da Sumqayıt şəhərində “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda regional konfrans keçirilib.**



Konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşıb. Toplantıda Abşeron, Xızı rayonlarında və Sumqayıt şəhərində fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Faiq Kərimov aktual və çox ciddi bir mövzuya həsr olunmuş regional konfrasın mühüm əhəmiyyətindən danışaraq, Sumqayıtdakı dini durum barədə məlumat verib. O qeyd edib ki, əhalinin dini baxışlarının sağlam müstəvidə formalaşdırılması, gənclərin radikal fikirli insanların təsiri altına düşməməsi və din xadimlərimizin bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün bu cür maarifləndirici tədbirlərin keçirilməsi təqdirəlayiqdir.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışıb. Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunmasını xatırladan Dövlət Komitəsinin sədri qeyd edib ki, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Bildirilib ki, dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir, ölkədə dini radikalizm meyillərinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilir. Mübariz Qurbanlı onu da vurğulayıb ki, Azərbaycan ənənəvi İslam ölkəsi olmaqla yanaşı, eyni zamanda, dünyəvi dövlətdir, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Dövlət Komitəsi sədrinin sözlərinə görə, məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, hətta bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazisi Rauf Sərdarov çıxış edərək vurğulayıb ki, bu gün ölkəmizdə dinlərarası münasibətlər yüksək səviyyədədir və Prezident İlham Əliyevin qayğısı sayəsində Azərbaycanda yeni məscidlər tikilir və dini abidələrimiz bərpa olunur.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov ənənəvi dini dəyərlərimizin mahiyyətindən bəhs edərək, bu dəyərlərin qorunmasının vacibliyindən danışıb. O qeyd edib ki, qeyri-ənənəvi dini təriqətlərin yayılması cəhdlərinin qarşısının alınması gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin düzgün aparılmasından asılıdır.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Sumqayıtda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, mərkəzi icra orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu davam etdirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 26-da Sumqayıtda bu şəhərdən, eləcə də Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarından olan sakinləri qəbul edib.

Sumqayıt şəhərindəki Tarix Muzeyində keçirilən qəbulda Komitə sədrinə ünvanlanan müraciətlər əsasən dini icmaların dövlət qeydiyyatı və fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri, məscid kitabxanasının yaradılması və digər məsələlərlə bağlı olub.

Qəbuldan sonra muzeyin akt zalında “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” adlı regional konfrans keçirilib.

## DQİDK-nın və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə tədbirlər keçirilib

Yanvarın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ucar bölgəsi üzrə şöbəsi və Zərdab Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun tələbləri baxımından rayon ərazisində dini durumun sabit saxlanılması üçün qarşıda duran vəzifələr mövzusunda tədbir keçirilib.

Tədbirdə Zərdab Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, dini işlər üzrə komissiyanın sədri Rəhman Feyzullayev, rayon İcra Hakimiyyəti Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Murad Həsənov, rayon Polis Şöbəsinin rəis müavini Bilal Nuriyev və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları, eləcə də, dövlət qeydiyyatından keçən, rayon ərazisində fəaliyyət göstərən dini icmaların rəhbərləri və din xadimləri iştirak ediblər.

Tədbirdə “Dövlət-din münasibətləri”, “Dini ekstremizm nədir?” və “Dini ekstremizə qarşı Qanunun tələbləri” mövzusunda çıxışlar edilib. Dini radikalizm və ekstremizmə qarşı mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində dini icmaların və din xadimlərinin üzərinə düşən vəzifələr haqqında qarşılıqlı fikir mübadiləsinin aparıldığı tədbirdə iştirakçıların sualları cavablandırılıb.

* * *

Həmin gün DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dövlət qeydiyyatından keçən, rayon ərazisində fəaliyyət göstərən dini icmaların sədrləri və din xadimləri ilə görüş keçirilib.

Görüşdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları və Göyçay RİH-in məsul əməkdaşı Vüsal Zöhrabov da iştirak edib.

Tədbirdə Göyçay rayonundakı mövcud dini durum, dini icmaların və din xadimlərinin fəaliyyətlərinin aktivləşdirilməsi istiqamətində geniş müzakirələr aparılıb. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliklər, “Dini ekstremizmə qarşı mübarizə haqqında” qanunun tələbləri haqqında tədbir iştirakçılarına ətraflı məlumatlar verilib.

# “Heydər” məscidi dini icmasız fəaliyyət göstərəcək

**Bakıdakı “Heydər” məscidi Azərbaycandakı digər məscidlərdən fərqli olaraq, dini icmasız fəaliyyət göstərəcək.**

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki,Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) axund və imam təyinatına baxmayaraq, “Heydər” məscidində dini icma yaradılmayacaq: “Bu məscid dini icma olmadan fəaliyyət göstərəcək. Bütün bunlar qanuna uyğundur. Çünki o məscid ayrıca bir kompleksdir və bir məscid-kompleks olaraq Bakı Şəhər İcra Hakimiyyətinin nəzdindədir. Bu baxımdan da buranın idarəçiliyi özəl formada həyata keçirilir. Ona görə də bu məscid digər məscidlərin idarəçiliyindəki qaydalarla deyil, kompleksin Əsasnaməsi əsas götürülərək idarə olunacaq”.

Qeyd edək ki, “Heydər” məscidi Qafqazın ən böyük məscidi hesab olunur. Ötən həftə uzun fasilədən sonra QMİ sədri Allahşükür Paşazadə tərəfindən ora imam (Hafiz Abbasov) və axund (Rüfət Qarayev) təyin edilib.

## Dövlət Komitəsində görüşlər

**Yanvarın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stavı qəbul edib.**

Görüşdə Azərbaycan-İsrail münasibətlərinin tarixi, yəhudi icmasının Azərbaycandakı fəaliyyəti, ölkəmizdəki multikultural və tolerant mühit barədə danışılıb. Qeyd olunub ki, müxtəlifliyin geniş yayıldığı bir dünyada millətlərin birgə yaşamasını təşviq edən Azərbaycan modelinin unikallığı ilə seçilir. Bu baxımdan Azərbaycan tolerantlıq ixracatçısı ola bilər.

* * *

**Yanvarın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuperi qəbul edib.**

Dövlət Komitəsinin sədri qonağa ölkəmizdə həyata keçirilən demokratik islahatlar, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində görülən işlər, din azadlığı, yəhudilərin Azərbaycanda məskunlaşma tarixi barədə ətraflı məlumat verib. Bildirilib ki, ölkəmizdə bütün dinlərin nümayəndələri əsrlərdir sülh və qardaşlıq mühitində yaşayırlar. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ili "Multikulturalizm ili" elan edib.

Bildirilib ki, Azərbaycanda müxtəlif dini əqidələrdən və mədəniyyətlərdən olan insanlar azad yaşayır və bərabər imkanlara malikdir, bu tolerantlıq digər ölkələr üçün nümunə olmalıdır.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən hər iki görüşün sonunda qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildiriblər.

# Mübariz Qurbanlı: 20 Yanvar ölkəmizin azadlığı uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq salnaməsi kimi daxil oldu

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mərkəzi Aparatında və bölgələrdə 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım tədbirləri keçirilib.*



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.**

Ölkəmizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edən Komitə sədri Mübariz Qurbanlı 20 Yanvar hadisələrinin ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq salnaməsi kimi daxil olduğunu vurğulayıb. O bildirib ki, Azərbaycan xalqı 1990-cı il yanvarın 20-də hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirib. 20 Yanvar faciəsi zamanı həlak olan dinc sakinlərin içərisində azərbaycanlılarla yanaşı, digər xalqların və dinlərin nümayəndələri də var idi. Bu, bir daha göstərir ki, Azərbaycançılıq ideyası ölkəmizdə yaşayan bütün xalqlara məxsusdur.

Günahsız insanların qətli ilə nəticələnən bu faciəyə ilk dəfə siyasi-hüquqi qiyməti Ulu Öndər Heydər Əliyevin verdiyini və onun hadisəni ört-basdır etmək istəyən imperiya rəhbərliyinin Azərbaycan əleyhinə xəyanətkar siyasətinə qarşı çıxaraq ölkəmizin haqq səsini müdafiə etdiyini vurğulayan Mübariz Qurbanlı bildirib ki, bu, informasiya blokadasının olduğu çətin bir vaxtda olduqca vacib addım idi.

Tədbirdə çıxış edən millət vəkili Fəzail Ağamalı bildirib ki, 26 il bundan əvvəl Bakıda törədilən qırğın xalqımızın milli azadlıq mübarizəsini boğmaq məqsədi daşısa da, onun müstəqillik əzmini qıra bilməyib və Azərbaycanın müstəqillik qazanmasına təkan verib. Millət vəkili Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar hadisələrinin müstəqilliyə aparan yolda ilk böyük itki və qəhrəmanlıq nümunəsi olduğunu bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, Azərbaycan Respublikası Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete, "Həyat Sözü" xristian dini icmasının sədri Rasim Xəlilov tədbirdə çıxış edərək, 20 Yanvar faciəsi ilə bağlı xatirələrini bölüşüb, bu günün təkcə matəm günü yox, həm də milli qürur günü kimi tariximizə həkk olunduğunu bildiriblər.

* * *

**20 Yanvar qətliamı ilə bağlı tədbirlər Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən də keçirilib. Belə tədbirlərdən biri DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsində baş tutub. 20 Yanvar faciəsində şəhid olanların ailə üzvləri və əlillər ilə keçirilən görüşdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədov tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmişdir. Nəticədə dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş və yaralanmışdır. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin



və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

20 Yanvar Cəmiyyəti Lənkəran şəhər şöbəsinin sədri Yusif Abdullayev və başqaları çıxışlarında 20 Yanvar şəhidləri və əlillərinə göstərilən diqqəti dövlətimizin qayğısı kimi dəyərləndirərək ölkə başçımız cənab İlham Əliyevə şəhid ailələri və əlilləri adından minnətdarlıqlarını ifadə ediblər.

Sonda 20 Yanvar şəhid ailələri və əlillərinə ərzaq yardımı verilib.

* * *

**Növbəti tədbir DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə keçirilib. Şöbə əməkdaşları, rayonda fəaliyyət göstərən dini icma rəhbərləri, imam və din xadimləri Şəki şəhərində 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini, eləcə də Qarabağ uğrunda döyüşlərdə şəhid olan həmvətənlərimizin məzarlarını ziyarət ediblər.**



Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Anım mərasimində DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev çıxış edərək bildirib ki, ötən illər ərzində xalqımız bu hadisəni unutmayıb və hər il şəhidlərimizin əziz ruhu dərin ehtiramla yad edilir. Digər natiqlər də 20 Yanvar faciəsindən danışaraq bildiriblər ki, bu faciə bütün azərbaycanlılar üçün milli azadlıq uğrunda qəhrəmanlıq rəmzidir.

* * *

Yanvarın 19-da Zaqatala rayonunda Zaqatala-Balakən Bölgə Qazılığı və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi tərəfindən "20 Yanvar faciəsi" adlı tədbir təşkil olunub. Rayonda fəaliyyət göstərən din xadimləri, dini icma sədrləri və imamların iştirak etdiyi tədbirdə Zaqatala RİH-nın məsul əməkdaşı İlqar Vəliyev, Bölgə qazısı İbrahim İbrahimov və Zaqatala şöbəsinin müdiri Mehman İsmayılov mövzu ətrafında çıxışlar ediblər. Azərbaycanın müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin ruhuna dualar oxunub, Qurani-Kərim tilavət edilib.

* * *

**Yanvarın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsi tərəfindən də 20 Yanvar faciəsinə həsr edilmiş anım tədbiri keçirilib.** Tədbirdə çıxış edən DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev bildirib ki, Azərbaycan xalqı bu qanlı tarixi heç zaman unutmayacaq. O vurğulayıb ki, 20 Yanvar xalqımızın tarixində həm hüzn günü kimi, həm də qürur və iftixar hissi ilə xatırlanacaq.

Sonda DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin kollektivi və rayonun bir qrup din xadimi Quba rayon Şəhidlər Xiyabanına gələrək şəhidlərimizin məzarını ziyarət ediblər.



# Mübariz Qurbanlı: "Multikultural münasibətlərin davamlılığı və bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır"



**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 13-də "yap.org.az"-a müsahibə verib.**

**- Mübariz müəllim, artıq Azərbaycanda multikulturalizm məfhumu dövlət səviyyəsində təbliğ olunur. 2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə əlaqədar dövlətimizin başçısının imzaladığı məlum Sərəncam növbəti illərdə bu istiqamətdə atılacaq addımların daha da intensivləşəcəyindən xəbər verir. Mümkünsə, öncə bu barədə məlumat verərdiniz.**

- Ümumiyyətlə, istənilən dəyərin, ideyanın cəmiyyətdə yaşaması və inkişafı onun möhkəm təməllərə və güclü dəstəyə malik olmasından asılıdır, desək, yanılmarıq. Bu mənada multikulturalizmi Azərbaycan mühiti üçün min illər boyu gündəlik həyatın bir gerçəkliyi kimi səciyyələndirə bilərik. "Azərbaycan xalqı özlüyündə, təbiətinə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir", deyən Ulu Öndər Heydər Əliyev bizim cəmiyyət olaraq bəşəri dəyərlərə münasibətimizin ən orijinal və aydın izahını vermiş, Azərbaycanı milliyyətindən və dinindən asılı olmayaraq, müxtəlif xalqların nümayəndələrinin doğma vətəni adlandırmışdır. Çünki tarixin bütün dövrlərində ölkəmizdə bu gün multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən, çağdaş dövrümüzdə belə, dünyanın bir sıra ölkələrinə hava, su qədər gərəkli olan çoxsaylı amillər olmuşdur. Bu amillərdən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri örnək göstərə bilərik.

Eyni zamanda, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Qeyd etməliyik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır. Bu bəşəri dəyərə ciddi önəm verən dövlət başçısının hələ iki il öncə imzaladığı Sərəncamla Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Xidməti, eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırmışdır.

Ümumiyyətlə, hesab edirəm ki, Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib" fikri multikulturalizmin mahiyyət etibarilə Azərbaycanın, eləcə də gələcəkdə bəşəriyyətin inkişafının yeganə yolu hesab etməsi, bu anlayışın beynəlxalq əhəmiyyətini anlamaq baxımından bütün mətləblərə aydınlıq gətirir.

**- Prezident İlham Əliyevin 2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə əlaqədar Sərəncamı sizcə hansı zərurətdən qaynaqlanır və bununla dünyaya hansı mesaj verilir?**

- Müasir dövrdə beynəlxalq aləmdə bir sıra siyasi mərkəz və dairələrin, eləcə də bəzi ölkələrin münasibətlərində təlatümlər, ziddiyyətlər, ikili standartların hakim kəsildiyi şəraitdə humanist dəyərlərin arxa plana keçməsi heç kəsə sirr deyil. Əfsuslar olsun ki, irqçi təmayüllərin, ksenofobiya və neçə-neçə qeyri-insani yanaşma tərzinin gücləndiyi, hətta ölüm hökmü kimi mürtəce cəza növlərinin kütləvi tətbiqi ilə diqqəti çəkən dairələr az qalsın Azərbaycana insan hüquqları, yaxud din, mənəviyyat "dərs"i keçməyə çalışırlar. Qeyd olunan neqativ mənzərənin fonunda Azərbaycanda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə cənab Prezidentin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi Azərbaycan gerçəkliklərinin genişmiqyaslı ifadəsinin daha intensiv xarakter alması baxımından olduqca əhəmiyyətlidir. Bu gerçəkliklər içərisində Azərbaycanın dövlət və cəmiyyət olaraq bəşəri dəyərlərə həssas və humanist münasibətinin müqabilində ölkəmizə qarşı ikili yanaşmalar xeyli dərəcədə qabarıq görünməkdədir. Düşünürəm ki, cənab Prezidentin birbaşa diqqəti və nəzarəti ilə multikultural mühitin daha da möhkəmlənməsi və inkişafı istiqamətində görülən davamlı işlərin sistemlilik və mütəşəkkilliyini artırmaq baxımından bu Sərəncamı ciddi əhəmiyyətə malik təşəbbüs olaraq qeyd etməklə yanaşı, dəyişən, qloballaşan və dəyişdikcə insan amilinə laqeydliyi ilə səciyyələnən dünya ictimaiyyətinə insan amilini, bəşəri dəyərləri bütün fəaliyyətlərin fövqündə tutan Azərbaycan Respublikasının bir mesajı kimi də dəyərləndirə bilərik.

Multikulturalizm kimi bəşəri dəyərlərə Azərbaycanın münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə praktik müstəvidə də özünü göstərir. Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti nəticəsində tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizin Şərqlə Qərb arasında körpü rolu oynaması daha da aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondunun bütün dinlərə xüsusi diqqət göstərməsi, Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı dünya ictimaiyyətinə Azərbaycanın dəyərli töhfəsi kimi qiymətləndirilməlidir.

**- Azərbaycan multikulturalizminin xarakterik cəhətlərini, eləcə də onun başqalarının təqdim etdiyi eyniadlı anlayışdan fərqini necə izah edərdiniz?**

- Tarixə nəzər salsaq, eyni zamanda müasir dünya reallığına diqqət yetirsək, görərik ki, etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi dinc xarakterli olsa belə, heç də həmişə humanist prinsiplər əsasında həyata keçirilmir. Bu gah assimilyasiya, gah da izoliyasiya kimi mürtəce mahiyyətli formalarda təzahür edir. Maraqlı cəhət ondan ibarətdir ki, insan hüquqlarına münasibətdə özünü müasir dünyanın "lokomotiv"i sayan dairələr multikulturalizmi ya inkar, ya da imitasiya etməklə təzadlı mövqe nümayiş etdirirlər. Burada multikulturalizmin mövcudluğunu iddia edən bir sıra ölkələrdəki situasiyanı izləmək insanda gerçəkliyi əks etdirən təsəvvür yaratmaqla yanaşı, Azərbaycan reallığının rasional və obyektiv dərki baxımından da bir çox məqamlara aydınlıq gətirir. Belə ki, bəzi Qərb ölkələrində multikulturalizm kimi təqdim olunan sosial münasibətin Azərbaycanla formaca oxşar cəhətləri sezilsə də, məzmun etibarilə fərqli səciyyə daşıyır. Azərbaycanda minilliklər boyu dinc, yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qorumuş, hazırda isə cəmiyyətdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar – dövlət siyasəti əlavə olunmuşdur ki, bu da respublikamızda multikultural mühitin uğurlu perspektivlərini təmin edir. Lakin Qərb dünyasında təqdim olunan "multikulturalizm" isə həmin ölkələrə sığınmış qaçqın və ümumilikdə gəlmələrə olan hörmət və ehtiramdan deyil, sadəcə "dözümlü" münasibətdən ibarətdir. Təbii ki, həm regional, həm də qlobal miqyasda müxtəlif cəlbedici adlarla öz mədəniyyətlərinin dominantlığını təmin etməyi hədəfləyən, başqa mədəniyyət daşıyıcılarına assimilyasiya obyekti kimi baxan, cismani, yaxud mənəvi əritmək, yox etmək fəaliyyətlərini tarixən və çağdaş dövrümüzdə dövlət siyasətlərində analoqsuz ənənə halına salmış eqoist təfəkkürlü qüvvələrin imitasiyalarını multikulturalizmi alternativsiz həyat tərzinə çevirmiş Azərbaycanla müqayisə etmək belə özlüyündə qüsurlu görünür.

**- Lakin multikulturalizmin hökm sürdüyü Azərbaycan Respublikası nədənsə bir sıra xarici dairələrdə əsassız ittihamlarla üzləşir, ölkəmizdə hansısa dini cərəyanların sıxışdırıldığı iddia edilir.**

- Diqqət yetirsəniz, həmin dairələrin müdafiə etdiyi qrupların təbliğatı ölkəmizdə mövcud olan tolerantlıq mühitinə zidd, fərqlilikləri qəbul etməyən, təməl baxışlarında dözümsüzlük dayanan cərəyanları təmsil etdiyi aşkar görünür. Dözümsüzlüyü və başqa inanclara nifrəti aşılayanlara Azərbaycan dövlətinin münasibəti ölkə qanunvericiliyi, Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların və müqavilələrin müddəaları ilə müəyyənləşir.

**- Ölkədə multikultural mühitin qorunması və inkişafında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rolu nədən ibarətdir?**

- Şübhəsiz ki, bu sahədə Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsində davamlı və ardıcıl işlər aparılmaqdadır. Məlumdur ki, Azərbaycan Respublikasında əhalinin 96 faizini müsəlmanlar, qalan həmvətənlərimiz isə digər dinlərin mənsublarını təşkil edirlər. Ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Dövlətin konfessiyalara münasibətində də bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi ölkəmizdə qeydiyyatdan keçməklə fəaliyyət göstərən dini icmaların fəaliyyətinin dəstəklənməsi, onların ictimai həyatın bir parçası kimi cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlərin görülməsini aydın şəkildə müşahidə etmək olar. Ölkədə 649 dini icma qeydiyyatdan keçmişdir ki, onlardan 24-ü, yaxud 3.7 faizi qeyri-islam təmayüllüdür.

Prezident İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli, 892 nömrəli Sərəncamı ilə ayrılmış 2,5 milyon manat məbləğində maliyyə vəsaiti dini maarifləndirmə və mənəvi dəyərləri təbliğ etmə işini daha da gücləndirmək üçün nəzərdə tutulmuşdur. Dövlət Komitəsi dini maarifləndirmə işinə bilavasitə dini icmaların özlərini cəlb edərək, onların öz fəaliyyətlərini müvafiq layihələr çərçivəsində qurmaqla bu prosesin hərəkətverici qüvvəsi kimi çıxış edir. Beləliklə, dini icmalar dövlət vəsaiti ilə reallaşdırılan dini maarifləndirmə işinin obyekti yox, icraçısı kimi çıxış edirlər. Burada bir məqamı da qeyd etmək yerinə düşərdi. 2,5 milyon manat vəsaitdən 400 min manatı qeyri-islam dini icmalarına ayrılmışdır. Nəticədə ölkə əhalisinin 4 faizini, dini icmaların isə 3,7 faizini təşkil edən qeyri-islam dini icmalarına ümumilikdə dini icmalar üçün nəzərdə tutulmuş maliyyə vəsaitinin 16 faizi düşmüşdür ki, bu da göründüyü kimi real proporsional nisbətdən 4 dəfə çoxdur.

Eyni zamanda, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır. Bu istiqamətdə məscidlərlə yanaşı, kilsə və sinoqoqların dövlət vəsaiti hesabına tikilməsini də qeyd edə bilərik.

**- Mübariz müəllim, multikulturalizmin Azərbaycan modelinin beynəlxalq arenada perspektivini necə görürsünüz?**

Hesab edirəm ki, bu model bir örnək kimi həm regional müstəvidə, həm də beynəlxalq arenada tətbiq edilməlidir və ümidvaram ki, ediləcəkdir. Çünki bütün dövrlərdə bəşəriyyətin xilası humanizm prinsiplərində olmuşdur. Azərbaycan bir dövlət olaraq multikulturalizm kimi humanist dəyərlərini dünyada təbliğ və öz nümunəsində layiqincə tətbiq edir. İnanıram ki, ölkəmizin multikulturalizm sahəsindəki təcrübəsi qısa zaman ərzində dünya ölkələri üçün nümunəvi örnək olacaqdır.

# "Dini radikalizmlə mübarizə işinin təşkili istiqamətində dini icmaların maarifləndirilməsi"



Yanvarın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhərdəki Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizə işinin təşkili istiqamətində dini icmaların maarifləndirilməsi" mövzusunda seminar-müşavirə keçirilib.

Müşavirədə rayonun dini icma rəhbərləri və dindarları ilə yanaşı, ağsaqqallar, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbə müdiri Miryəhya Bədirov seminar-müşavirə iştirakçılarına bölgədəki dini durum haqqında geniş məlumat verərək bildirib ki, bölgədə on bir millətin və müxtəlif dinlərin nümayəndəsi yaşayır. O, regiondakı dini sahədə görülən işlərdən və bəzi nöqsanlardan, radikalizmlə mübarizənin indiki vəziyyətdə vacibliyindən danışıb.

Sonra DQİDK sədrinin birinci müavini Səyyad Salahlı mövzu ilə bağlı geniş məruzə ilə çıxış edib. O, çıxışında son vaxtlar dünyada baş verən dövlət-din münasibətlərinə təhlil verərək, xüsusən də İslam ölkələrində baş verən hadisələri Azərbaycanın dövlət-din modelindən və multikultural dəyərlərdən, onların sıx əlaqələrindən danışıb. Bölgədəki dini durumu və nüfuzlu din xadimlərinin fəaliyyətini yüksək qiymətləndirən Səyyad Salahlı Masallı ağsaqqallarına və dindarlarına gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, həmçinin radikal dini təsirlərdən qorunmasında daha fəal olmalarını tövsiyyə edib.

Tədbirdə çıxış edən QMİ-nin bölgə qazısı Mirqiyas Təhməzov bu tədbirin əhəmiyyətindən danışaraq keçirilən tədbiri yüksək qiymətləndirib. O, dindarları dövlətlə vəhdətə çağıraraq, cəmiyyətimizdə və dinimizdə bölücülük mövqeyini pisləyib.

Tədbirdə, həmçinin Ərkivan qəsəbə Ağsaqqallar şurasının sədri Şərafət Əzizov, Aşurlu kənd məscidi dini icmasının üzvü Həmdulla Ağayev və başqaları çıxış edərək, mövzu ilə bağlı fikirlərini bildiriblər.

# Mübariz Qurbanlı: "Nardarandakı "Rəhimə xanım" ziyarətgahının dini icması qeydiyyata alınacaq"

**"Nardarandakı "Rəhimə xanım" ziyarətgah-məscidində dini icmanın qeydiyyata alınmasına dair sənədlər hazırlanıb və Sabunçu Rayon İcra Hakimiyyətinə təqdim olunub".**

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. Dövlət Komitəsi Sədrinin sözlərinə görə, qaydaya əsasən, Rayon İcra Hakimiyyəti o icma barədə hüquqi ünvanla bağlı arayış verir, daha sonra bu arayış sənədlərlə birlikdə həm Qafqaz Müsəlmanları İdarəsinə, həm də Komitəyə təqdim olunur: "Bundan sonra icma rəsmən qeydiyyata alınır və müvafiq sənəd təqdim olunur. Mən bu gün Rayon İcra Hakimiyyətinin başçısı ilə danışdım. Proses gedir. İcmanın qeydiyyata alınması üçün ən az 50 nəfər üzvü müraciət etməlidir. "Rəhimə xanım" ziyarətgahından 53 nəfər müraciət edib. Hazırda müraciətə baxılır və inşallah qeydiyyata alacağıq".

Komitə sədri deyib ki, bu icma qeydiyyata alındıqdan sonra təkrar Nardaranda görüş keçiriləcək, söhbət aparılacaq və oradakı icması qeydiyyatdan keçməyən digər məscidlərdə də bu məsələlər həll olunacaq.

Qeyd edək ki, Nardarandakı hadisələrdən sonra qəsəbə üzrə yalnız Cümə məscidi qeydiyyatı olduğu üçün fəaliyyətini davam etdirib. Digər məscidlər - "Rəhimə xanım", "Qulam Əli", "Kiçik" və "Ağa" məscidlərinin isə qeydiyyatları olmadığı üçün fəaliyyəti dayandırılıb. Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Nardaran qəsəbəsində olublar, "Rəhimə xanım" ziyarətgahında bir qrup dindar və ağsaqqallarla görüşüblər.

# "Dinimiz mənəviyyatımızdır" mövzusunda növbəti tədbirlər baş tutub



**Yanvarın 14-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 6 və 15 saylı cəzaçəkmə müəssisələrində "Dinimiz mənəviyyatımızdır" mövzusunda növbəti tədbirlər keçirilib. Tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işlərinin təşkili idarəsinin rəis müavini İntiqam Əliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, Komitənin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi Ceyhun Rüstəmov iştirak ediblər.**

Tədbirlərdə çıxış edən Penitensiar Xidmətin İdarə rəisinin müavini İ.Əliyev Azərbaycanın multikulturalizm və tolerantlıq nümunəsi olduğunu bildirib. O qeyd edib ki, respublikamız tolerant ölkə kimi bütün ölkələrə nümunə göstərilə bilər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov ölkəmizdə dinə münasibətin yüksək səviyyədə olmasını diqqətə çatdırıb.

Komitə sədrinin müavini Ulu Öndərimiz Heydər Əliyevin "Dinimiz mənəviyyatımızdır" kəlamını yada salaraq bildirib ki, ibadət edən heç kəs milli kimliyini unutmamalıdır. Azərbaycanda bütün dinlərin nümayəndələrinə eyni münasibət göstərilir, məscidlər, sinaqoqlar, kilsələr tikilir, təmir olunur. S.Heydərov təəssüflə





qeyd edib ki, bəzi qüvvələr İslamı terrorçu din kimi təbliğ edərək öz məqsədlərinə nail olmaq istəyirlər. QMİ-nin nümayəndəsi C.Rüstəmov Qurandan və hədislərdən sitatlar gətirərək, vurğulayıb ki, İslam dini sülh və əmin-amanlıq dinidir. C. Rüstəmov dinə və dindarlara göstərilən diqqət və



qayğıya görə dövlətimizə təşəkkür edib.

Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev isə İslam ölkələrində baş verən hadisələrdən danışıb. Hər iki tədbirdə o da vurğulanıb ki, belə görüşlərin keçirilməsinin böyük əhəmiyyəti var.

* * *

"Dinimiz mənəviyyatımızdır" mövzusunda növbəti maarifləndirici tədbir yanvarın 21-də Penitensiar xidmətin 1 saylı cəzaçəkmə müəssisəsində keçirilib. Tədbirdə Penitensiar xidmətin Tərbiyə işinin təşkili idarəsinin məsul əməkdaşları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Hacı Şahin Həsənli iştirak ediblər. Tədbirdə vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirici söhbətlər aparılıb, əxlaq və fəzilət, dinin əmr və qadağaları barədə geniş məlumat verilib. Azərbaycanın tolerantlıq və multikulturalizm modelinin dünya üçün nümunə olduğu dini konfessiya nümayəndələrinə qarşılıqlı hörmət və anlayışlı inanc aşılandığı və "Heydər" məscidində qılınmış vəhdət namazının buna əyani sübut olduğu məhkumların diqqətinə çatdırılıb.

Keçirilən tədbirlərin sonunda mövzu ətrafında müzakirələr aparılıb, məhkumların çoxsaylı sualları cavablandırılıb.



## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# QUBA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Quba bölgəsi üzrə şöbəsi 2015-ci ilin may ayında Şimal bölgəsi üzrə şöbənin əsasında yaradılmışdır. Şöbənin dislokasiyasına Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayonları daxildir. Azərbaycanda tolerantlığın canlı nümunəsi olan bu ərazi həm etnik, həm də dini cəhətdən ölkəmizin ən rəngarəng bölgələrindəndir. Burada Azərbaycan türkləri ilə yanaşı ruslar, ukraynalılar, tatarlar, ləzgilər, yəhudilər, o cümlədən xınalıqlılar, qırızlılar, ceklilər, haputlular, buduqlular və s. xalqların və etnik qrupların nümayəndələri mehriban və yaxın qonşuluq şəraitində yaşayırlar. Əhalinin əksər hissəsi müsəlmanlardan ibarət olsa da, bölgədə yəhudilər və xristianlar da öz ibadətlərini sərbəst şəkildə həyata keçirirlər. Təqribən 535 min nəfərin yaşadığı bu bölgədə 219 məscid, 203 pir və ziyarətgah, 3 sinaqoq, 1 xristian-pravoslav kilsəsi var. Bunlardan 69 məscid, 75 pir-ziyarətgah Quba rayonunda, 87 məscid, 52 pir-ziyarətgah Xaçmaz rayonunda, 27 məscid, 67 pir-ziyarətgah Qusar rayonunda, 31 məscid, 7 ziyarətgah Şabran rayonunda və 5 məscid, 2 ziyarətgah Siyəzən rayonunda yerləşir. Onlardan 39 məscid dini icması və "Qırmızı qəsəbə dağ yəhudiləri" dini icması DQİDK-da dövlət qeydiyyatından keçmişdir. Hazırda digər dini icmaların da qeydiyyatdan keçməsi ilə bağlı işlər görülür və daha 6 məscid dini icmasının sənədləri hazırlanaraq Dövlət Komitəsinə təqdim olunmuşdur.***




2015-ci il ərzində bölgədəki dini durum və dövlət-din münasibətlərinin tənzimlənməsi daim diqqətdə saxlanılmış, təbliğinə, nəşr və idxalına DQİDK tərəfindən razılıq verilməyən dini ədəbiyyatın bölgədə yayılmasının qarşısı alınmış, bu məqsədlə bölgədə fəaliyyət göstərən ixtisaslaşdırılmış satış məntəqələrinə müvafiq inzibati orqanlarla birlikdə baxış keçirilmişdir. Onu da qeyd etmək istərdik ki, bölgədə dini məzmunlu məlumat materiallarının satışı üzrə yalnız bir ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə Dövlət Komitəsi tərəfindən lisenziya verilmişdir. Bununla yanaşı, zərərli təriqət və cərəyanların radikal hərəkətlərinin qarşısının alınması məqsədilə özündə millimənəvi və dini dəyərlərimizi əks etdirən, Dövlət Komitəsinin dəstəyi ilə çap olunan 30 adda 3000-dən çox ədəbiyyat bölgə dindarlarına və əhaliyə paylanılmışdır. Həmçinin DQİDK-nın mətbu orqanı "Dövlət və Din" jurnalı, "Cəmiyyət və Din" qəzeti mütəmadi olaraq dindarlara çatdırılır.

Bütün bunlarla yanaşı, ayrı-ayrı şəxslərin zərərli dini fəaliyyəti ilə bağlı, xaricdə dini təhsil alan şəxslər haqqında məlumatların əldə edilməsi, bölgədə dini sabitliyin qorunub saxlanması istiqamətində qanunvericiliyə müvafiq işlər görülmüşdür. Belə ki, bölgədə dini radikalizmi təbliğ edən qeyri-ənənəvi təriqətlərin təhriki ilə özlərini dindar adlandıran bəzi şəxslərin ölkə hüdudlarından kənardakı silahlı münaqişələrdə iştirakı faktlarına rast gəlinirdi. Ancaq görülən tədbirlər nəticəsində son vaxtlar həmin şəxslərin sayı xeyli azalmışdır. Məscidlərdə xarici ölkədə dini təhsil alıb gələn, minbərlərdə oturub həmin ölkələrin maraqlarına uyğun məruzələr edən şəxslərin fəaliyyəti tamamilə dayandırılmışdır. Məhz bunun nəticəsidir ki, son dini mərasimlər zamanı bölgədə dini zəmində heç bir yürüş keçirilməmiş, dini-siyasi şüarlar səsləndirilməmişdir. "Aşura" mərasimi bölgədə sabit keçmiş, heç bir qanun pozuntusu qeydə alınmamışdır.

DQİDK-nın sədri Mübariz Qurbanlı iki dəfə bölgəyə səfər edərək (Siyəzən və Qusara) vətəndaşları qəbul etmiş və onların problemləri ilə maraqlanmışdır. Həmçinin Komitə sədrinin istər bölgədə təşkil olunan "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfranslarda, istərsə də Yeni Azərbaycan Partiyasının xətti ilə Quba rayonunda, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin xətti ilə isə Xaçmaz şəhərinin Tarix Diyarşünaslıq muzeyində



vətəndaşlar qarşısındakı çıxışı, yerli dindarlar, ziyalılar, ağsaqqallar və cəmiyyətin müxtəlif təbəqəsindən olan digər insanlarla görüşü dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədə və bölgədəki dini durumun hərtərəfli təhlili baxımından işimizə müsbət təsir göstərmişdir. Bundan başqa, həm şöbənin özünün, həm də digər qurumlarla birgə keçirdiyi tədbirlər, seminar-treninqlər bölgədə nəzərəçarpacaq izlər qoymuşdur. Dini maarifləndirmə sahəsində görülən işlər nəticəsində bölgə ictimaiyyəti, xüsusilə dindarlar və gənclər zərərli cərəyanlar, dini radikalizm, tolerantlıq, ənənəvi İslam, dinlərarası və məzhəblərarası dostluq, dövlət-din münasibətləri və s. kimi mövzularla daha yaxından tanış olmaq, bu cür mövzularda lazımi biliklərə yiyələnmək imkanı qazanmışdır.

Qeyd edək ki, Quba şəhərində isə dini icma sədrlərinin, axund və imamların iştirakı ilə "Dini radikalizmlə mübarizə işinin təşkili istiqamətində dini icmaların maarifləndirilməsi" mövzusunda seminar-müşavirə keçirilmişdir. Tədbirdə Dövlət Komitəsi sədrinin I müavini Səyyad Salahlı və şöbə müdirləri çıxışlar etmişlər. Həmçinin şöbə Quba rayon Prokurorluğu və Quba rayon Polis şöbəsi ilə birgə rayonun Digah kəndində "Dini radikalizmlə mübarizədə vətəndaşların rolu" mövzusunda tədbir keçirmişdir.

2015-ci ilin noyabr ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Baş Prokurorluq, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə Xaçmaz şəhəri Tarix Diyarşünaslıq Muzeyinin akt zalında "Dini ekstremist, separatçı və destruktiv qüvvələrin törədə biləcəkləri pozucu hərəkətlərin, mütəşəkkil və peşəkar cinayətkarlıq kimi təhlükəli təzahürlərin aradan qaldırılması, eləcə də bütövlükdə Azərbaycan Respublikası ərazisində kriminogen durumun sabitləşdirilməsinə yönəldilmiş qabaqlayıcı tədbirlərin görülməsi" mövzusuna həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir. Müşavirədə bölgəyə daxil olan rayonların hüquq-mühafizə orqanlarının rəhbərləri, əsas din xadimləri iştirak etmişlər.

Bunlardan başqa, şöbənin QHT sektoru və televiziya ilə də əməkdaşlığı olmuşdur. Bunlara misal olaraq, "Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin "Qarabağ Seyid Ocaqları" İctimai Birliyi ilə birgə Quba, Qusar və Şabran şəhərlərində həyata keçirdiyi "Milli adət-ənənələrimiz və müasir çağırışlar" mövzusundakı tədbiri, o cümlədən "Bizim Nəsil" Gənclərin Regional İnkişafına Dəstək İctimai Birliyinin "Gənclərin düzgün dini maarifləndirilməsi"; "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin "Gənclər arasında azərbaycançılığın təbliğində dini maarifçiliyin rolu"; "Nurlu Sabah Uşaq – Gənclər Təşkilatı" İctimai Birliyinin "Gənclər arasında dövlət rəmzlərinin təbliği"; "Turan" İstedadlar Birliyinin "Şimal bölgələrində müasir dini maarifləndirmə və tolerantlığın təbliği" mövzusunda keçirdikləri tədbirləri göstərə bilərik. Həmin ictimai müzakirələrdə şöbə əməkdaşları da fəal iştirak etmişlər. May ayında Xaçmaz şəhərinin RTV (Regional televiziya) televiziyasında nümayiş olunan verilişdə Azərbaycanda tolerantlıq və dini dözümlülük mövzusunda çıxışlarımız

⇨ 11

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# QUBA









10⇦ olmuşdur. Bunlarla yanaşı, Ombudsman aparatının təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Quba şəhəri "Cümə" məscidində, Qusar şəhəri "Mustafa Kazdal" və Şabran şəhəri "Xıdır Zində" məscidlərində, "Uşaq hüquqları aylığı" çərçivəsində isə şöbə tərəfindən hazırlanmış Tədbirlər Planı əsasında dindarların iştirakı ilə tədbirlər həyata keçirilmişdir.

Bölgədə maarifləndirmə istiqamətindəki tədbirlərin davamı olaraq, "Gənclərin zərərli vərdişlərdən çəkindirilməsi, radikal dini cərəyanlara qoşulmasının qarşısının alınması" mövzusunda Quba rayon Xucbala kəndində, Quba şəhəri "Cümə" məscidində, Xaçmaz Rayon İcra Hakimiyyəti və Təhsil Nazirliyinin Dövlət Komitəsi ilə birgə Xaçmaz rayonu peşə liseyində, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında, Quba Dövlət Sosial-İqtisadi Kollecində tədbirlər keçirilmişdir. Həmin tədbirlərdə bölgəyə daxil olan dini icma rəhbərləri, ictimaiyyət nümayəndələri, müəllimlər, tələbələr və şagirdlər iştirak etmişlər.

"İnsan haqları və tolerantlıq" mövzusunda 2015-ci ilin iyun ayı ərzində Quba şəhəri "Cümə" və "Hacı Cəfər" məscidlərində, o cümlədən Şabran, Xaçmaz və Qusar rayonlarının mərkəzi məscidlərində məruzələr oxunmuşdur. Həmçinin "Dini radikalizmin ictimai-siyasi fəsadları" mövzusunda Quba şəhəri "Ərdəbil" məscidi, Xucbala və Digah kənd məscidlərində, Şabran rayonu Şahnəzərli kənd məscidində tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı ilə dini icmalara maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2,5 mln. manat vəsaitin ayrılması bölgədə də maarifləndirmə işlərində yeni mərhələ açmışdır. Belə ki, bölgəmizdəki 6 dini icmaya müxtəlif layihələrin həyata keçirilməsi məqsədilə vəsait ayrılmışdır. Həmin dini icmalar bölgədəki gənclərin dini radikal təsirlərdən qorunması, həmçinin zərərli vərdişlərlə mübarizə mövzularına həsr olunmuş layihələri uğurla həyata keçirmişlər. Layihələrin həyata keçirilməsində dini ekspertlər yaxından iştirak etmiş, DQİDK aparatının və şöbənin əməkdaşları metodiki dəstək göstərmişlər. Ümumilikdə 19 tədbir keçirilmiş, bu tədbirlər xüsusən dini icmalarda, bəziləri geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutmuşdur. Tədbirlərdə ayrılmış vəsait hesabına çap olunmuş dini ədəbiyyat iştirakçılara paylanmış, tədbirlər yerli və mərkəzi mətbu orqanlarda işıqlandırılmışdır. Layihələrlə bağlı keçirilən maarifləndirmə tədbirləri dövlət-din münasibətlərinin tənzimlənməsinə xidmət etməklə yanaşı, gənc dindarlar arasında böyük marağa səbəb olmuşdur. Keçirilən tədbirlərdə bölgədə tolerantlığın qorunub saxlanılması və inkişaf etdirilməsi diqqət mərkəzində olmuşdur. Müsəlman dini icmaları ilə "Qırmızı qəsəbə dağ yəhudiləri" dini icması istər müqəddəs bayramlarda, istərsə də ayrı-ayrı vaxtlarda məscid və sinaqoqlarda görüşlər keçirmişdir. Xaricdən bölgəyə gələn şəxslərin sinaqoqlara, məscidlərə getmələri, dini icmalarla görüşləri təşkil olunmuşdur. Məqsəd bölgədə yaşayan ayrı-ayrı xalqların nümayəndələri arasındakı qarşılıqlı hörməti, birgəyaşayış ənənəsini daha da gücləndirmək və inkişaf etdirmək olmuşdur. Bunlardan əlavə, müxtəlif vaxtlarda İslam dininə mənsub ayrı-ayrı məzhəb və təriqətlərin nümayəndələrini bir araya gətirərək dövlətimizin milli maraqlarının qorunmasının vacibliyi barədə müzakirələr aparılmışdır. Bu zaman QMİ-nin bölgədəki qazıları, səlahiyyətli nümayəndələri, axund və imamları ilə də sıx əməkdaşlıq edilmişdir.



Dövlət Komitəsi sədrinin dini mərasimlərin və ehsan süfrələrinin sadələşdirilməsi ilə bağlı verdiyi tövsiyələr bölgə əhalisi tərəfindən müsbət qarşılanmışdır. Belə ki, əhali tərəfindən qısa müddət ərzində bölgədə keçirilən yas mərasimlərinin müddəti üç günə endirilmiş, həmçinin ehsan süfərələrində israfçılığa yol verilməməsi ilə bağlı müəyyən addımlar atılmışdır. Bu işdə ziyalılar, ağsaqqallar və bəzi dindarlar xüsusi fəallıq göstərmişlər.

Şübhəsiz, görülmüş işlərlə yanaşı, həlli vacib olan bəzi məsələlər hələ də qalmaqdadır. Quba bölgəsi üzrə şöbə cari ildə bu sahədə var gücü ilə fəaliyyətini davam etdirəcəkdir.

***Eynulla NURULLAYEV,***
***DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri***











Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği çərçivəsində

# Dövlət başçısının Sərəncamı bölgələrdə uğurla həyata keçirilir



Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən, bölgələrdə tədbirlər davam etdirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə bu qəbildən tədbirlər Abşeron rayonu Güzdək qəsəbəsi “Rəsulullah” məscidi, Bərdə rayonu “Uğurbəyli” kənd məscidi, Lerik rayonu Gürdəsər kənd məscidi, Xətai rayonu Əhmədli qəsəbəsi, Ağdam rayon Xındırıstan kənd məscidi, Ağcabədi rayonu Muğanlı kənd məscidi və Xaçmaz şəhər “Təzə şəhər” məscidi dini icmaları tərəfindən həyata keçirilib.

“Zərərli vərdişlər və erkən nikahın yaratdığı fəsadlar”, “Erkən nikahların cəmiyyətdə yaratdığı fəsadlar və dinin mövqeyi”, “Dini radikalizm və onun təzahür formaları”, “Dini radikalizmin qarşısının alınmasında ənənəvi İslam dəyərlərinin rolu” “Dini radikalizmə qarşı mübarizə yolları və milli mənəvi dəyərlərimizin təbliği”, “Tolerantlıq yurdu - Azərbaycan”, “Qəhrəmanlar unudulmur!”, “Ənənəvi İslam dini Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsidir” və s. mövzularda təşkil olunmuş tədbirlərdə Dövlət Komitəsinin rəhbər şəxsləri, əməkdaşları, müstəqil ekspertlər, təhsil işçiləri, axundlar, dini icmaların üzvləri, ağsaqqallar, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Dövlət başçısı İlham Əliyevin dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayırması barədə Sərəncamını dövlətin dinə olan növbəti qayğısı kimi qiymətləndirən natiqlər bildiriblər ki, dini icmalara göstərilən bu cür dəstək onların məsuliyyətini artırır və fəaliyyətlərinin daha da gücləndirməsi üçün əlavə stimul verir. Qeyd olunub ki, İslam dini və milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində atılan bu addım cəmiyyəti narahat edən neqativ halların aradan qaldırılması istiqamətində öz bəhrəsini verəcəyi şübhəsizdir.

Keçirilən tədbirlərdə çıxış edən natiqlər İslam dininin xalqımızın mənəvi dəyərlər sistemindəki əhəmiyyətindən, zorakılığın, radikalizmin, ekstremizmin fəsadlarından, onun cəmiyyətə vura biləcəyi zərbələrin acı nəticələrindən, sonuncu səmavi dinin zərərli vərdişlərə, eyni zamanda erkən nikaha qarşı mövqeyindən bəhs ediblər. Bildirilib ki, qloballaşan dünyamızda son zamanlar baş verən əksər münaqişələrin, müharibələrin əsas səbəbi dini zorakılıq, radikalizm, ekstremizm, məzhəb təəssübkeşliyi və ayrı-seçkiliyidir. Dini radikalizmin müxtəlif təzahür formalarından və milli-mənəvi dəyərlərimizə zərərlərindən söz açılan tədbirlərdə “müasir dövrün vəbası” hesab edilən






dini radikalizmlə, ekstremizmlə mübarizədə maarifləndirmənin əvəzsiz rolundan, həmçinin ölkəmizdə əsrlərdir mövcud olan tolerantlıq mədəniyyətinin, birgəyaşayış ənənəsinin geniş şəkildə təbliğinin zərurətindən danışılıb.

Vətən sevgisi, xalqımızın qəhrəmanlıq tarixi ilə bağlı keçirilən tədbirlərdə 20 Yanvar qırğınının dəhşətlərindən, Şəhidlik zirvəsindən və İslam dininin Vətən uğrunda şəhid olanlara verdiyi dəyərdən danışılıb. Bildirilib ki, 20 Yanvar günü Azərbaycanın tarixinə hüzn, qəhrəmanlıq və qürur günü kimi həkk olunub. Bu gün həm də xalqımızın qan yaddaşında şərəfli mübarizə günü, eyni zamanda bir qəhrəmanlıq tarixidir. O gecə şəhid olan qəhrəman oğul və qızlarımız Vətən uğrunda canlarını fəda etmiş və ən yüksək şəhidlik zirvəsinə ucalmışlar.

Eyni zamanda bildirilib ki, Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, din sahəsində də ölkə vətəndaşları arasında düzgün təbliğat aparılmasına dəstək verməkdədir. Bu gün xalqımızın zəngin tolerantlıq ənənələrinin qorunub saxlanması və daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.




## ELAN

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### *Ləğv olunmuş dini icmalar*

**Salyan şəhər dindarları dini icması**
**Qeydiyyat tarixi: 06.03.2002-ci il**
**Qeydiyyat № 73**

Salyan şəhər dindarları dini icması təsisçilərinin 16.11.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 28 dekabr 2015-ci il**

### Elanlar

Oğuz şəhər Yəhudi dini icmasının (10.03.2006-cı ildə 1306O1-344 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 01.12.2015-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

---

Bakı şəhəri Nəsimi rayonu “Kərbəlayi Abdulla” məscidi dini icmasının (25.01.2008-ci ildə 1308B1-433 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 11.01.2016-cı il tarixli ümumi yığıncağında 9 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

---

Quba şəhəri “Ərdəbil” məscidi dini icmasının (15.09.1995-ci ildə Ədliyyə Nazirliyinin kollegiyası qərarına əsasən 93 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.01.2016-cı il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

---

Bakı şəhəri Sabunçu rayonu Maştağa qəsəbəsi “Əbülfəz ağa” məscidi dini icmasının (17.06.2010-cu ildə 100110A3-405 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 12.01.2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

* * *

**Bakı şəhəri Nəsimi rayonu “Hacı Əjdərbəy” məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 22**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Dadaşov Üzeyir Balağa oğlu, Salmanov Bəxtiyar Həsənxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Aslanov Amid Səməd oğlu, Rəhimov Elşən Elşad oğlu, Allahverdiyev Surxay Sədulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2015-ci il**

---

**Sabirabad rayonu Zəngənə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 494**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abasov Əli Abas oğlu, Əhədov Səməd Ağası oğlu, Əsgərov Əmir Əlfətin oğlu, Novruzov Seyfulla Feyzulla oğlu, Hümmətov Əlibrahim İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əhədov Əlşad Səməd oğlu, Babayev Xasay Ağababa oğlu, Əzizov Rəşid Ağafazil oğlu, Heydərov Röyal Adışirin oğlu, Əhədov Hüseyn Fazil oğlu, Sadıqov Alqış Güləhməd oğlu, Babayev İnşalla Hacağa oğlu, Süleymanov Bəybala Süleyman oğlu, Nuriyev Ağakərim Beydulla oğlu, Əsgərov Abusət Əmir oğlu, Abuzərov Çingiz Əşrəf oğlu, Eminov Məmməd Tərlan oğlu, Məmmədov Rafiq Surxay oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Abasov Əli Abas oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Abuzərov Çingiz Əşrəf oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 21 yanvar 2016-cı il**

**Neftçala rayonu II Qaralı kəndi “İmam Rza” məscidi dini icması**
**Qeydiyyat tarixi: 16 iyul 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 437**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həziyev Ərzuman Balabəy oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Cəfərov Ələkbər Hafis oğlu, Bağırov Əbülfəz Rzaqulu oğlu, Əsədov Nəriman Xeyrulla oğlu, Bağırov Əlizadə Rzaqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Həziyev Ərzuman Balabəy oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Həziyev Camal Ərziman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 21 yanvar 2016-cı il**

# Yaradılış sirri

**“...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”**

(Muminun, 14)



**İblis və Adəm**
**Adəmə səcdə əmri**

Quranın bir neçə ayəsində İblisin Adəmə səcdə əmri almasına rəğmən, bundan imtina etdiyi göstərilir. Həmin ayələrdən birində İblisin Adəmə səcdə etməməsinin səbəbi onun öz dilindən belə açıqlanır: **“(Allah İblisə): “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” – deyə buyurdu. (İblis:) “Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” – dedi”** (Əraf, 12).



**(III hissə)**

**Məni Sən azdırdın**

İblis öz məntiqinə əsasən, yaradılış ünsürü odu torpaqdan (yəni özünə görə daha dəyərsiz ünsürdən) daha xeyirli və dəyərli sayaraq səcdə etməməkdə özünə haqq qazandırır. Halbuki, Allah Öz iradəsi ilə həm onu oddan, həm də Adəmi palçıqdan yaratmışdı. Bu isə o deməkdir ki, İblis Allahın səcdə əmrinə etiraz etməklə ilk növbədə onun iradəsinə qarşı çıxmışdır. Quran bu ayələrlə bəşər övladına sahib olduğu fitri (yəni özünün əldə etmədiyi, yaradılışdan onunla olan) xüsusiyyətlərlə öyünməməli olduğunu xatırladır. Yəni kim sonradan əldə etmədiyi xüsusiyyətlərlə öyünürsə, bilsin ki, İblisin xüsusiyyətidir. Bununla yanaşı, Quranda İblisin Allaha müraciət edərək “məni Sən azdırdın” etirazı ilə qarşılaşırıq. Məsələn, “Hicr” surəsinin 39-cu ayəsində deyilir: **“(İblis) dedi: “Ey Rəbbim! Məni azdırmağına (rəhmətindən kənar etməyinə) əvəz olaraq and içirəm ki, mən də (bunun müqabilində) onlara (pis əməllərini, günahlarını) yer üzündə yaxşı göstərib, onların hamısını yoldan çıxaracağam!”.** Ayəni təklikdə götürüb, “Bu, şeytanın əvvəlcədən Allah tərəfindən müəyyən olunmuş alın yazısı idi, yəni Allahın onu azdırma aqibəti var idi”, - deyə bilmərik. Çünki şeytanın qədərində belə acınacaqlı bir aqibət olsaydı, Allah-Təala ona “Nə üçün sənə əmr etdiyimdə səcdə etmədin?” sualını verərdimi?! Və buradan yola çıxaraq bunu Cənnətdən (Yer üzündəki səfalı yerdən) çıxarılan Adəmin aqibəti barədə də söyləmək olar. Belə ki, əgər onun Cənnətdən çıxarılması əvvəlcədən İlahi qəza və qədərdə yer alsaydı, nə üçün o, tövbə etməli idi. Yəni Adəm barəsində “Bütün bunlar onun üçün proqram halına salınmışdı və o da bir növ öz rolunu oynayırdı”, - deyə bilmərik. Bu isə o deməkdir ki, bütün baş verənlər istər İblisin, istərsə də Adəmin şəxsi seçimləri idi. Lakin bu məsələləri başa düşmək üçün bu ayələrin arasını dolduran başqa ayələri nəzərdən keçirmək lazımdır.

**Şeytanın günah payı**

Əgər Adəm üçün bütün bunlar əvvəlcədən ssenari olaraq hazırlanmışdısa, onda nə üçün o, “Mən özümə zülm etdim”, “Əgər məni bağışlamasan” kimi ifadələrdən istifadə edir? Əgər hər şey əvvəlcədən proqram kimi qurulsaydı, sorğu-sual zamanı həm Adəm, həm də İblis Allaha “Sən bizim üçün bunları qərar verdin, biz də etməli olduğumuzu etdik”, - söyləyib özlərinə bəraət qazandırmağa çalışardılar. Bu yerdə bir daha Qurana nəzər salaq: **“(Ya Peyğəmbər!) Biz mələklərə: “Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu”** (Bəqərə, 34). Ayənin sonunda bildirildiyi kimi, İblis öz ixtiyarı ilə bu yolu seçir ki, “imtina etdi” və “kafirlərdən oldu” ifadəsi də bunun açıq-aşkar dəlildir. Yəni İblis öz iradəsi ilə təkəbbüründən dolayı bu mövqedən çıxış edir və küfr yolunu da öz ixtiyarı ilə seçir. Başqa sözlə desək, Allah onu Öz rəhmət dərgahından durduğu yerdə qovmur. Bunu “Əraf” surəsində eyni mövzu işıqlandırıldıqda da görürük. Və buradan belə bir sual yaranır: Biz insanların etdiyimiz günahlarda şeytanın payı varmı? Yoxsa bu da bizim fitrətimizdən irəli gəlir? Quran “İbrahim” surəsinin 22-ci ayəsində bu sualı məhşər gününün sorğu-sualından bəhs olunarkən belə cavablandırır: “İş bitdikdə (cənnətliklər Cənnətə, cəhənnəmliklər də Cəhənnəmə daxil olduqda) Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: **“Allah (peyğəmbərlər vasitəsilə) sizə (pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə) doğru vəd vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə (dünyada) sizin məni (Allaha) şərik qoşmağınızı da inkar etmişdim (qəbul etməmişdim). Həqiqətən, zalımları şiddətli bir əzab gözləyir!”** Ayənin mətnindən məlum olur ki, heç də bütün günahların müəllifi şeytan deyil, bəlkə də bir çox hallarda şeytanlaşan insanların özləridir. Bununla yanaşı, “Zuxruf” surəsinin 36-cı ayəsini də nəzərdən keçirməliyik: **“Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı ürcah edərik və onun (Şeytanın) yaxın dostu olar”.** Buradan da belə aydın olur ki, şeytanın insana ürcah olması yalnız insanın Allahın zikrindən boyun qaçırmasından sonra başlanır. Yəni insanın Allahdan uzaqlaşmasının başlıca səbəbkarı şeytan yox, onun özüdür. Şeytan isə özünü ona ürcah edənlərin üzərində çalışır və onları istədiyi kimi ram edə bilir. “Məryəm” surəsinin 83-cü ayəsində isə buyurulur: **“(Ya Rəsulum!) Məgər kafirlərin üstünə onları yoldan çıxarıb günaha sövq edən şeytanları göndərdiyimizi görmədinmi?”** Bu ayənin də ortaya qoyduğu fakt ondan ibarətdir ki, şeytan insanlara küfrə (günaha) aludə olduqdan sonra hakim kəsilir. Əlbəttə, bu, heç də şeytanın insanı azdırmağa meyl göstərmədiyi anlamına gəlmir. Verilən ayələr sadəcə şeytanın insana onun özünə meyl etməsindən sonra hakim olacağından xəbər verir. “Əraf” surəsinin 16-17-ci ayələrində bu həqiqətə işarə olunaraq buyurulur: **“(İblis) dedi: “Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacağam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm (soxulacağam) və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!” Buna bənzər başqa bir ayədə isə Allah-Təala İblisə cavab olaraq buyurur: “Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində (onları yoldan çıxarıb günaha vadar etməyə) sənin heç bir hökmün olmaz!”** (Hicr, 42). “Sad” surəsinin 83-cü ayəsində isə bu etirafı İblisin öz dilindən eşidirik: **“Yalnız Sənin sadiq bəndələrindən başqa!”** Bu ayələrdən də belə məlum olur ki, Allah insanın fitrətində şeytanın fitnəsindən qorunması üçün iman adlı sığortalayıcı güc qərar vermişdir. Odur ki, insanın şeytanın təsiri altına düşməsi özünü sığortalayan gücdən uzaqlaşıb, nəfsinə uymasından asılıdır. Elə isə nə üçün hər şeyə qadir olan Uca Yaradan buna icazə verir?! Nə üçün İblisə “Otur oturduğun yerdə, mənim bəndələrimlə işin olmasın” əmrini vermir? Belə olduğu təqdirdə həyatın bir anlamı və məhşərin sorğu-sualına ehtiyac olmayacağı önə çıxır. Çünki insan azad, iradə və ixtiyar sahibi bir varlıqdır. Həm günaha, həm də savaba sahib olduğu azadlıqla, öz iradə və ixtiyarı ilə istiqamətlənir. Və buradan başqa bir sual da yaranır: deməli, şeytan insanı azdırmaqla vəzifələndirilmişdir? Yəni əgər Allahın izni və iradəsi olmasaydı, şeytan nə qədər güclü varlıq olsa belə, insana hər hansı mənfi təsir göstərə bilməzdi. Əgər belədirsə, deməli, bu imkanı ona Allah vermişdir. Və əgər Allah vermişsə, onda nə üçün şeytan bu qədər qınanmalıdır? Axı necə olsa da, o, ona tapşırılanı ixtiyarında olan imkanlarla yerinə yetirir. Quran ayələrinə nəzər saldıqda belə bir iddianı dəstəkləyəcək hər hansı bir ifadə və fikirlə qarşılaşmırıq. Əksinə, bunun tam tərsini görürük. Belə ki, Uca Yaradan bütün rolları hazır qoymuş, lakin onları kimsənin ixtiyarına buraxmamışdır. **“Sən İblis olub, insanları yoldan azdıracaqsan!”** və ya **“Sən də Adəm olub, günahlarına görə tövbə edəcəksən”,** - deyə kimsəyə vəzifə verməmişdir. Bu seçim onların hər birinin öz ixtiyarına qoyulmuşdur. Və bu seçim olmadan nə sınaq və imtahanın bir anlamı olar, nə də onların cavabı olan mükafat və cəzanın. “Sad” surəsinin 85-ci ayəsində bu mətləbə işarə ilə buyurulur: **“And olsun ki, Mən Cəhənnəmi səninlə (sənin cinsindən olanlarla) və sənə uyanların hamısı ilə dolduracağam!”** Mövzu ilə əlaqədar üzərində dayanılmalı başqa bir məsələ ilk baxışda İblisin Allaha qarşı çıxması və Ona qarşı müxalif mövqedə durmasıdır. Diqqəti çəkən başqa bir məqam şeytanın Adəm övladını günaha sövq etməsidir. Vurğulamalıyıq ki, müxalifət mövzusunu insanların bir-biriləri ilə müxalifəti kimi başa düşməməliyik. Çünki Allah-Təala bənzəri olmayan varlıqdır. Bunun üçün də müxalifət, hətta yaxınlıq məsələsini insanların bir-birlərinə olan müxalifət və yaxınlığı kimi qəbul etməməliyik. Belə ki, həm müxalifət, həm də yaxınlıq təsir və əks-təsirdən yaranır ki, Allah da kimsənin təsiri altına düşməyən Mütləq Varlıqdır. İblisə gəlincə, bunu adi yanaşmadan başqa bir şey kimi başa düşməməliyik.



*İsmayıl ƏHMƏDOV,*
*ilahiyyatçı*

# Uğursuz müsahibənin hikməti

**- Mənə acı xatirə olaraq qanlı ayaqqabı tayı...**

Cümləsini bitirə bilmədi. Alt çənəsi əsirdi. İri dodaqlarını dişlərinin arasında sıxıb, göz yaşları görünməsin deyə, başını divara tərəf çevirdi. Danışmaqda çətinlik çəkirdi. Tez-tez nəfəs alıb-verməyə başladı və həmin hadisələri yenidən yaşayırmış kimi gözlərini bir nöqtəyə zillədi. Sözünə baxmayan, yanaqlarını yandıraraq axan göz yaşları, bəlkə də, çarəsizliyinin intiqamı idi. İlk dəfə idi ki, yeniyetməlik yaşına yenicə qədəm qoymuş uşağın üzündə göz yaşlarının bir necə yerdən özünə necə yol açdığını görürdüm. Bir çayın torpağın üstündə açdığı qolları kimi...

**- Acının nə olduğunu bilirsiniz?**

Bayaqdan bir nöqtəyə zillədiyi bərəlmiş gözlərini gözlərimə dikdi. O gözlərdəki dəhşətdən özümü bir anlıq itirdim. Qulaqlarıma bir uğultu hakim oldu. Və elə o anda-ca özümü toplayıb dodağımın altında "nə?" deyə cavab verdim. Doğrusu, elə yavaş söylədim ki, özüm belə eşitmədim. Sualı eşitdiyim halda bir daha nə üçün eşitmək istədiyimi heç özüm də bilmirdim. Bəlkə də, bunu o gözlərdəki dəhşətdən qurtulmaq üçün söylədim. Sısqa bədənini bütünlüklə titrədən köks ötürdü:

- Görünür, siz acının nə olduğunu hələ də dərk etməmisiniz. Fotoşəkillər çəkmək, buradakı insanlarla söhbət etmək sizin ancaq ürəyinizi sıxa bilər. O da bir-iki saat. Sonra öz vətəninizə qayıdıb işlərinizlə məşğul olacaqsınız.

**"...İnsan nankordur!"** (İsra 67), - dedi. Sonra yumruqlarını sıxaraq:

- Mən sizə baş ağrısından danışmıram. Vətən acısından danışıram. Balasını öz əlləri ilə dəfn edən atanın acısından danışıram. Mən sizə...

Qəhərlənmiş səslə davam etdi:

- Körpələrin, günahsız mələk kimi çağaların qəddarcasına öldürülməyindən danışıram. Mən sizə şəraitsizlikdən yaralıları necə müalicə edəcəklərinin çarəsizliyini yaşayan iki həkimin acısından danışıram. Anaların fəryadından, zorlanan qadınların oğurlanmış namusundan danışıram", - deyərək susdu.

Sakitlik çökdü otağa. Üstündən nə qədər keçdi, bilmirəm. Ancaq bu müddət o qədər uzun göründü ki, elə bil o hadisələri yaşamış kimi oldum. O, çəkdiyi hər acını, müharibənin dəhşətini gözlərində ifadə edirdi. O gözlərin səsi olsaydı, bu dəqiqə yeri-göyü lərzəyə salacaq bir nərə çəkərdi.

**- Bəs siz burada uşaq olmağın nə demək olduğunu bilirsiniz?**

Məndən cavab gözləmədən:

- Burada uşaq olmaq aciz olmaqdır, məzlum olmaqdır, məhəlləsindən keçən tanklara daş atmaqdır; əsgərlərin silahlarla evinə basqın edib, atasının əllərini bağlayıb, anasına, bacısına təcavüz edərkən əlindən bir şey gəlməməkdir. Burada uşaq olmaq bomba səslərinə, qan iyinə öyrəşməkdir, parçalanmış cəsədlərə hər gün şahid olmaqdır...

Son cümləsindən sonra qulaqlarıma yenə bir küy hakim oldu. Qarşımdakı yeniyetmə yaşadığı əzabları ağzı köpüklənə-köpüklənə danışır, yumruqlarını sıxıb, izah etməyə çalışırdı. Bütün bu dəhşətləri görüb, dərk edən insan mənim üçün uşaq deyildi. O, uşaq ikən yaşlanmışdı.

Biz yeddinci gün idi ki, jurnalist kimi bu ərazilərə ezam olunmuşduq. Əsas işimiz gördüklərimizdən fotoreportaj hazırlayıb, dünyaya çatdırmaq idi. Ərəb dilini yaxşı bildiyim üçün mənə xəstəxanada müalicə alan uşaqların fotolarını çəkib, onlardan müsahibə götürməyi tapşırmışdılar. Bu yarımçıq bina əslində heç xəstəxanaya bənzəmirdi. Sadəcə həkim və yaralılar olduğu üçün buraya "xəstəxana" deyilirdi. Gigiyenik cəhətdən olduqca natəmiz bu bir mərtəbəli, şüşələri sınıq binanın divarları belə, çirkab qoxurdu. Şəraitsiz "xəstəxana" mənim ürəyimi ağrıdırdı. Düzdür, burada o qədər də yaralı yox idi. Amma uşaqların sözlərinə görə, əgər on gün tez gəlsəydik, kiçik "məhşər günü"nün şahidi ola bilərdik. Ananı balasından, balanı atasından, bacını qardaşından ayıran faciə yaşanırmış o gün burada. Hər yer parçalanmış bədənlərlə dolu imiş. Malayziyalı həkim bizə soyuqqanlı şəkildə bir neçə cümlə ilə həmin günü şərh etdi. Eşitdiklərimdən elə bil damarlarımda qanım donmuşdu. Rəhbərimiz sonradan bu haqda məlumatı biləndə gecikdiyimiz üçün təəssüflənirdi.

Əslində, mən heç kimlə müsahibə aparmaq istəmirdim. Yalnız ürək ağrısı ilə buradakı uşaqların şəkillərini çəkirdim. Çox zaman fotoaparatı onlara tərəf çevirib şəkillərini çəkərkən, ixtiyarsız əllərini göyə qaldırıb, təslim olduqlarını bildirmək istəyi məni dəhşətə gətirirdi. Axı onların günahı nə idi?!

Bu yeniyetmə ilə də təsadüfən görüşdüm. Dar, rütubətli və dəmir çarpayısı olan otaqda tək-tənha oturmuşdu. İlk gördüyümdə elə bildim, əlində qanlı bir ayaqqabı tayı ilə söhbət edir. Sonradan öyrəndim ki, bu ayaqqabı tayı partlayış zamanı parçalanmış balaca bacısından qalan acı xatirə imiş. O, hər gün Allaha körpə bacısını Cənnətə apardığı üçün şükürlər edirdi. O gündən sonra qısa zamanda bu yeniyetmədən müsahibə almaq qərarına gəldim. Təəssüf ki, bu görüş son günümə təsadüf etdi. İlk dəfə mən ona özümü təqdim edərkən belə dedi:

- Çox qəribədir. Bir qrup insan bir qrup insanı acılara qərq edir, digər qrup insan isə bu dəhşətləri başqa qrup insanlara çatdırır. Mən bunları zalım, məzlum, xəbərçi və tamaşaçı deyə qruplara ayırardım. Sonda hamısı insandır. Dünya əhalisidir. Zalım zülmündə, məzlum acısında, ortada fotolarla, müsahibələrlə, məqalələrlə kimlərəsə nəsə çatdırmaqla xəbərçilər iş gördüklərini sanırlar. Ancaq onların çağırışındakı fəryada dünya əhalisi hələ də susur. Olan yenə məzluma olur. Amma ürəyim bircə Qurandakı bu ayə ilə təskinlik tapır: **"Onlar üçün Cəhənnəmdən (cəhənnəm odundan) döşək və üstlərinə örtmək üçün (ataşdən) yorğan vardır. Biz zalımları belə cəzalandırırıq!"** (Əraf, 41). Sonra üzündəki təmkinli ifadə ilə əlavə etdi:

- Allah onları cəzalandıracaq. O, böyük qüdrət sahibidir. **"Güldürən də, ağladan da Odur!"** (Nəcm, 43).



**"Ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz (Allah yanında inanmayanlardan) çox yüksəkdə durursunuz!"** (Ali-İmran, 139)

On üç illik jurnalistika təcrübəmdə belə hadisə ilə ilk dəfə qarşılaşırdım. Əslində, niyyətim müsahibə almaq idisə, ona heç sual da verməmişdim. Yaşının az olmasına baxmayaraq, təcrübəsi məndən dəfələrlə böyük biri ilə danışırmış kimi onunla söhbətdən çəkinirdim. Diqqətimi toplamağa, sual verməyə belə, cəsarətim qalmırdı. Bu yeniyetmə Allahın verdiyi hər günü şükürlə, dualarla qarşılayırdı. Allaha duasında bir an belə gecikmirdi. Onlarda bu ibadətə "namaz" deyirdilər. O, başına gələn bütün müsibətlərdən sonra yenə Allaha şükür edirdi. Baxmayaraq ki, bu qədər ağrı-acını o balaca ürəyinə sığdıra bilmişdi. Təəccübümü heç cür gizlədə bilmirdim. Artıq işimin uğursuzluğu ilə barışmalı olacağam deyə, anidən qərar verdim. Daha müsahibimi də incitmək istəmirdim. Ayağa qalxıb, stolun üstündəki əşyalarımı könülsüz yığışdırmağa başladım. Amma elə bil hansısa qüvvə məni buraya kilidləmişdi. Əşyalarımı topladıqdan sonra anidən bu fikirlərlə onu başdan ayağa süzdüm. "Mən onun yerində olsaydım, çoxdan intihar etmişdim", - dedim özümə.

Otaqdan çıxmağa hazırlaşırdım ki, mənə səsləndi:

- **"Rəbbinin yolunda səbir et!"** (Muddəssir, 7)

Və bir daha təkrarladı:

- Rəbbinin rızasını qazanmaq üçün bu yolda sənə üz verəcək bütün çətinliklərə səbir et!

Sanki daxili tərəddüdlərimi və ağlımdan ildırım sürəti ilə keçən fikri bilirmiş kimi danışırdı. Diktofonu söndürdüyüm üçün onun dediyi hər kəlməni yazmadan beynimə həkk etməli idim. Gözlənilmədən:

- "Sən xeyirxah insansan? Yəni yaxşı əməl sahibisən?", - soruşdu.

- "Bilmirəm. Bəlkə də hə, bəlkə də yox", - dedim.

- Bəs bu sualın cavabını bilmək istəyirsən?

- Hə, əlbəttə ki.

- "O zaman dinlə", - deyə davam etdi. "Mənim üçün bunun cavabı Qurani-Kərimin "Bəqərə" surəsinin 177-ci ayəsindədir: "Yaxşı əməl heç də üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbir edənlərdir. (İmanlarında, sözlərində və əməllərində) doğru olanlardır. Müttəqi olanlar da onlardır!" Elə deyilmi?

Özümdən ixtiyarsız:

- "Hə", - dedim.

Amma utanaraq. Bu utanmağımın səbəbini çox təəssüf ki, iki ay sonra bildim.

- Bəs sən bu ayədə keçənlərə əməl etdinmi?

- "Anlamadım. Mən müsəlman deyiləm axı. Qurani-Kərim sizin müqəddəs kitabınızdı. Və bütün o ayələr sizə nazil olub, bildiyimə görə", - deyib, yeni cümləmə başlamaq istəyirdim ki, qəfil və yüksək səslə:

- "Bəs insanlıq harada qaldı? Yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə yardım etmək tək müsəlmanın borcu deyil. İnsan adını daşıyan hər kəsin borcudur. Bilirsən, sıxıntı və xəstəlik üz verdikdə, məşəqqətlərdə bir insan kimi səbir etməyi bilməliyik. Dinindən asılı olmayaraq, hər kəs. Bizi Yaradan belə istəyir", - söylədi.

Sonra iri gözlərini daha da açıb, nə isə fikirləşirmiş kimi:

- "Müəllimim deyirdi ki, Quran bütün insanlığın xilası üçün göndərilib. Hər insanın oxunmamış 6236 məktubu var. Bu məktubların hamısı Quranda cəm olub. Əgər biz insanlar bunları oxusaq, dünyamız gözəlləşər. Sadəcə oxusaq... Hələ cavab verməyi heç demirəm. Hansi ki, Allah bunu ən sevdiyi bəndəsinə, Məhəmmədə göndərərək bütün insanlara sevgisini çatdırmağı tapşırıb. Hər kəs bu məktubları oxumalıdır ki, xilas ola bilsin. Bax, mən hər gün oxuyuram. İnanıram ki, bir gün mən də ailəmin yanına - Cənnətə gedəcəyəm", - dedi.

O dar, rütubətli otağın qapısının önündə pərişan halda dayanmışdım. Müsahibim isə susmuşdu. Bəlkə də, öz aləmində müəlliminin ona dediyi şeyləri xatırlayırdı. Bayırdan gələn səs-küy otaqdakı sükutu pozdu. Bizimkilər idi. Yola düşmək üçün məni axtarırdılar.

- Hə, vaxtdır artıq. Mən getməliyəm.

Qəribə təbəssümlə:

- "Sizinlə söhbət xoş oldu mənə. Bütün insanları sevirəm. Siz də daxil olmaqla", - deyib, sağollaşmaq üçün əlini uzatdı.

Uzatdığı əli özümə tərəf çəkib onu qucaqladım. Arıq bədəni qollarımın arasında titrəyirdi. Ona göstərdiyim bu qayğıdan daha da kövrəlib, çəkinə-çəkinə alçaq səslə:

- "Mən bilmirəm bundan sonra bizə

➪ 13



# Qəhrəmanlar unudulmur

Hər bir ölkənin, xalqın tarixini şəxsiyyətlər yaradır və hər bir şəxs igidliyin, mərdliyin, cəsarətin zirvəsinə yüksəldikdə qəhrəmana çevrilir.

Qəhrəmanlıq elə bir məfhumdur ki, onu əvvəlcədən planlaşdırmaq olmur, ona öncədən hazırlıq görülmür. Qəhrəmanlıq ana südü, ana laylası ilə insanın qanına hopur... Zamanı yetişdikdə həmin insan dövlətinin və millətinin xilaskarına çevrilir. Qəhrəmanlıq öz məqamındaca qəflətən doğulur, şimşək kimi çaxır, ildırım sürəti ilə hadisələrin istiqamətini dəyişir, fəlakətlərin qarşısını alır, mövcud tarixi dəyişərək yeni tarix yaradır.

Qəhrəmanlığın əsasını qoyan başlıca amil insanın qəlbindəki vətənpərvərlik duyğusudur. Bu duyğu olmadan Vətən uğrunda mübarizə aparıb qəhrəmana çevrilmək də, həm Uca Yaradanın tərifini, həm də Məhəmməd peyğəmbərin (s) sevgisini qazanan şəhidlik və ya qazilik zirvəsinə ucalmaq da mümkün deyil. Eyni zamanda, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik, mübarizlik hissi yaradır.

Tarixi təcrübə Azərbaycan xalqının nə dərəcədə vətənpərvər olduğunu dəfələrlə göstərib. Müxtəlif dövrlərdə "mənəm-mənəm" deyən ordular Azərbaycan torpaqlarında məğlubiyyətə uğrayıblar. Bununla belə, keşməkeşli tariximiz boyunca ölkəmiz ayrı-ayrı dövlətlər tərəfindən istila olunub, əsarətdə saxlanılıb. Odur ki, vətənpərvərlik, qəhrəmanlıq azərbaycanlıların qan yaddaşına hopub və zamanı gələndə onlar özlərini göstərə biliblər.

Məhz bu səbəbdəndir ki, şərəf və ləyaqətini hər şeydən uca tutan xalqımızın qəhrəman övladları Vətən çağıranda canlarından keçərək tarixə öz adlarını həkk etmişlər. Belə ki, bu yaxınlarda 26-cı ildönümünü qeyd etdiyimiz 20 Yanvar hadisələri zamanı, o cümlədən Qarabağ müharibəsi dövründə xalqımızın igid övladları Vətənimizin bütövlüyü, dövlətimizin toxunulmazlığı uğrunda qəhrəmancasına döyüşmüş və şəhid olmuşlar.

İnsanlara dünya və axirət səadətinin yollarını göstərən, sülh dini olan İslam da Vətən və millət kimi dəyərlərə böyük önəm verir. Bu dəyərlər uğrunda canından keçərək şəhid olanlar isə Allah tərəfindən Cənnətlə müjdələnmişdir. "Tövbə" surəsinin 111-ci ayəsində deyildiyi kimi: "Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)!" Peyğəmbərimiz (s) də buyurmuşdur ki, gələn təhlükəni görüb, qapanmayan gözün sahibi Allah yolunda bu təhlükəni aradan qaldırırsa, həmin bəndə bütün insanlardan daha xeyirli iş görür.

Şəhidlik, həmçinin günahların bağışlanmasına vəsilə olan fəzilətli əməldir. Bununla bağlı Həzrət Məhəmməd (s) demişdir: "Şəhidin qul borcundan başqa bütün günahlarını Allah bağışlayır".

Həmçinin o, buyurmuşdur: "Cənnətə girən şəxs Yer üzünün bütün nemətləri ona verildiyi təqdirdə belə, dünyaya qayıtmaq istəməz. Təkcə şəhiddən başqa. Şəhid on dəfə dünyaya gəlib, hər dəfə də şəhid olmaq istəyər". Allah Rəsulu (s) şəhidlik mərtəbəsinin ucalığına işarə edərək buyurmuşdur: "Allaha and içirəm ki, Onun yolunda döyüşüb öldürülməyi, sonra dirildilib yenə öldürülməyi, sonra təkrar-təkrar dirildilərək öldürülməyi nə qədər çox istəyirəm".

Üstün əxlaqı ilə bəşər övladına öndər olan Məhəmməd peyğəmbər (s) öz şücaəti ilə insanların ən cəsuru və qorxmazı idi. Belə ki, Allah Elçisi (s) həyatda ikən əksər döyüşlərə qatılmış və müşriklərə qarşı ön sıralarda vuruşmuşdur. O, Uhud savaşında yaralansa da, döyüş meydanını sonadək tərk etməmişdir. Hətta bir gün Mədinəyə düşmən hücumu gözlənildiyi anlarda qorxunc gurultu eşidildikdə hamıdan qabaq atına atlanaraq təkbaşına səsin gəldiyi tərəfə doğru getmişdir.

Peyğəmbərimizin (s) "elm şəhərinin qapısı" kimi vəsf etdiyi Həzrət Əli də (ə) döyüşlərdə göstərdiyi şücaətə görə "Allahın aslanı" ləqəbini qazanmışdır. Mənbələrdə onun Rəsulullah (ə) ilə 26-27 döyüşə qatıldığı barədə xəbər verilir. İmam Əli (ə) savaşlarda qazandığı həmin ləqəbi ömrünün sonunadək qoruyub saxlamışdır.

İnsanın xoşbəxtliyi müxtəlif meyarlarla ölçülə bilər. Ancaq Vətən, millət uğrunda ölmək, şəhid olmaq ən böyük xoşbəxtlikdir. Bu, elə bir xoşbəxtlikdir ki, hər kəsə nəsib olmur, hər kəsin qismətinə düşmür. Qəhrəmanlarımızın böyük əksəriyyəti bu gün bizimlə bu həyatda deyil. Onlar şəhidlik zirvəsinə ucalmış, Tanrı dərgahına qovuşmuşlar. Onların əziz xatirəsi Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Onların və digər Vətən övladlarımızın qəhrəmanlığı Azərbaycan gənclərinə örnək olmaqla yanaşı, gələcək nəslin vətənpərvər ruhda formalaşmasında böyük rol oynayacaq. Deməli, bu insanlar ölümləri ilə də xalqına xidmət göstərənlərdir. Onların hər birinin həyat hekayəsi ayrıca bir qəhrəmanlıq dastanıdır. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı vətənpərvərlik tərbiyəsində ön planda durmalıdır. Çünki bu cür övladları olan Vətən əbədiyyətə qədər yaşamağa layiqdir və yaşayacaqdır da. Nə qədər ki, uğrunda təmənnasız rəşadət göstərməyi, ölməyi bacaran övladların var, sən yaşayacaqsan, Azərbaycan!

Ulularımız "Vətən sevgisi imandandır" deyərək, bunda ilahi hikmətin təzahürlərini çox aydın sezmişlər. Çünki iman tam mənası ilə yalnız azad bir Vətən üzərində yaşana bilər. Vətən itirilərsə, din və iman da əldən getmiş olar.

*Tərxan PAŞAZADƏ*

# Uğursuz müsahibənin hikməti



12⇐ nə olacaq, amma sən əmin yerlərə gedirsən. Orada çalış, yaxşı əməl sahibi ol. Bu, səndən son istəyimdi. Çünki insanlar yaxşı əməl sahibi olsalar, bir-birini sevsələr, fikirləşirəm ki, müharibələr olmaz, analar-atalar, bir də müəllimlər ölməz, uşaqlar sağ qalar. Mən hər şeyi itirdim, hətta sağlamlığımı belə, ancaq başqaları üçün bunu arzulamıram", - söyləyib, mənə sarıldı.

Daha göz yaşlarımı saxlaya bilmirdim. Ana balasından ayrılan kimi ayrıldım o yeniyetmədən.

- "Sənə söz verirəm", - ixtiyarsız ağzımdan bu cümlə çıxdı...

Yol boyu gördüklərimin və uğursuz müsahibənin təsirində idim. Dostlarımın dediklərinə görə yuxuda belə, "söz verirəm, söz verirəm" deyə sayıqlayırmışam. Onların da təsirləndiyi çox şey var idi.

Artıq yeniyetmənin dediyi əmin yerdə idim. Burada o dəhşətlər yox idi. Heç bunu təsəvvür belə etmirdilər. Bizim gətirdiyimiz fotoşəkillərə isə sadəcə bir tamaşaçı kimi baxırdılar. Oradan gətirdiyimiz materialları çap edib, dünyaya səs salmağa çalışdıq. Bir müddət gördüklərimin təsirindən uzaqlaşmaq üçün məzuniyyətə çıxdım. Amma həyatıma daha əvvəlki kimi davam edə bilmədim. Bəzi gecələr qulaqlarımda "Bəqərə" surəsinin 177-ci ayəsi, dilimdə isə "söz verirəm" kəlməsi ilə yuxudan qan-tər içində oyanırdım. Bütün bunlar məni İslamı araşdırmağa vadar etdi. Araşdırmaçı jurnalist kimi bu, həm də mənim işim idi.

Beləliklə, ikinci ay olardı ki, gecə-gündüz Quran ayələrini oxuyur, Məhəmməd peyğəmbərin həyatını öyrənirdim. Məscidə gedirdim. Otuz beşillik həyatım demək olar ki, dəyişmişdi. Bu səhər isə tam dəyişdi. "Qasas" surəsinin 56-cı ayəsini göz yaşları ilə oxuduğum andan etibarən bütün həyatım gözümün önündən keçdi. "(Ya Rəsulum!) Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri (öz əzəli elmi ilə) daha yaxşı O bilir! (Və buna görə də onları haqq yola müvəffəq edir!)" Deməli, mən doğru yolda idim. Daxilimdə qəribə bir rahatlıq vardı. Allahın istəkli bəndəsi olduğumu gec də olsa, anlamışdım artıq. Allahın sevgisini bir bəndəsi kimi hər hüceyrəmdə hiss edirdim. Sevincimin həddi-hüdudu yox idi. Necə hazırlaşdığımı xatırlamıram, qaçaraq məscidə sarı getdiyim yadımdadır. Məscidin imamı məni sakitləşdirməyə çalışırdı. Mən isə göz yaşları içində **"LƏ İLƏHƏ İLLƏLLAH"** deyirdim...

*Gülnar QULUZADƏ*

## Beynəlxalq Dini Təhsil Şəbəkə Universiteti yaradılacaq

**Fevralın 2-də Belarusun paytaxtında MDB-nin İcraiyyə Komitəsində Birliyin iştirakçı dövlətlərinin Təhsil Sahəsində Əməkdaşlıq Şurasının işçi qrupunun MDB-yə üzv dövlətlərin Beynəlxalq Dini Şəbəkə Təhsil Universiteti haqqında əsasnamə layihəsinin tamamlanmasına dair iclası keçiriləcək.**

Sənəd layihəsi şəbəkə universitetinin təşkili və fəaliyyət göstərməsi qaydalarını müəyyən edir. Universitet MDB-nın iştirakçı dövlətlərinin dövlətlərarası birgə ali təhsil müəssisəsi olacaq və Moskva Dövlət Linqvistika Universitetinin bazasında açılacaq.

Universitet ali təhsil sahəsində əməkdaşlığın və beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, ənənəvi dinlərin və dini mədəniyyətlər tarixinin dərindən öyrənilməsi üzrə vahid konsepsiyasının hazırlanması, dünyəvi və dini təhsil müəssisələrinin qarşılıqlı əlaqələrinin koordinasiyası məqsədilə yaradılır.

Onun fəaliyyəti dini təhsilin keyfiyyətinin yüksəldilməsinə və təlimin təşkilinə, həmçinin birgə təhsil proqramlarının həyata keçirilməsi yolu ilə vahid təhsil məkanının yaradılmasına yönəldiləcək.

Universitetin əsas vəzifələrinə Birlik ölkələri üçün ənənəvi dinlərin (xristianlıq, islam, iudaizm, buddizm) konfessional-təhsil profilli "İlahiyyat", islam tarixi və mədəniyyətinin dərindən öyrənilməsi, o cümlədən distant təhsil texnologiyalarından istifadə etməklə "Kulturologiya" istiqamətləri üzrə magistr, aspirant və doktorantların hazırlanması daxildir.

Cəmiyyət və Din
№ 01 (294) / YANVAR 2016-cı il

# Avropanın ən dinsiz ölkəsi - İslandiya



"Reuters" agentliyi bildirir ki, sosioloqlar Avropanın ən dinsiz ölkəsini müəyyən ediblər.

Məlumata görə, Avropanın ən dinsiz ölkəsi İslandiyadır. Bu ölkənin sakinləri arasında dünyanın Allah tərəfindən yaradılmasına inanıb-inanmadıqlarına dair sorğu aparılıb. 34 yaşına qədər olan gənclər arasında aparılan sorğuda buna inananların faizi 0-a bərabər olub.

20 il bundan əvvəl isə islandların 90 faizinin dindar olduğu bildirilib. Hazırda isə bu göstərici 50 faizə bərabərdir.

Afrika və Yaxın Şərq ölkələrində isə bunun əksinə olaraq, 34 yaşına qədər olan gənclərin hər 10 nəfərindən 8 nəfəri özünü dindar hesab edir.

# Təyyarə qəzalarında ölən olmayacaq



Uçuş qəzalarında insanların ölümünü önləyəcək təyyarə hazırlanıb. Rusiyalı aviasiya mühəndisi Vladimir Tatarenko hazırladığı təyyarə layihəsi ilə qəzalarda insan ölümünə son vermək istəyir. "The Telegraph" yazır ki, mühəndis bu layihə üzərində üç ildir çalışır.

Təyyarə prototipi ayrıla bilən baş və gövdədən ibarətdir. Qəza zamanı sərnişinlər olan gövdə hissəsi ayrılır, paraşütlər açılır və təhlükəsiz şəkildə yerə enir. Qəza dəniz və ya okean üzərində baş versə, gövdə paraşütlə suya enir və xilasedici qayıqlar açılır.

Sərnişinlərin yükü gövdənin alt hissəsində saxlanır.

Mühəndis inanır ki, bu layihə çox sayda insanın həyatını xilas edəcək: "Bütün dünyada mühəndislər daha təhlükəsiz təyyarə hazırlamağa çalışır, ancaq insan amiliylə bağlı heç nə edə bilmirlər. Bu layihə ilə insanlar daha təyyarə qəzalarında ölməyəcəklər".

Təyyarənin quyruq hissəsində təcili hallar üçün ehtiyat çıxışı da var.

# Tibdə yeni kəşf - "ağıllı" sarğı



Uçuş qəzalarında insanların ölümünü önləyəcək təyyarə hazırlanıb. Rusiyalı aviasiya mühəndisi Vladimir Tatarenko hazırladığı təyyarə layihəsi ilə qəzalarda insan ölümünə son vermək istəyir. "The Telegraph" yazır ki, mühəndis bu layihə üzərində üç ildir çalışır.

Təyyarə prototipi ayrıla bilən baş və gövdədən ibarətdir. Qəza zamanı sərnişinlər olan gövdə hissəsi ayrılır, paraşütlər açılır və təhlükəsiz şəkildə yerə enir. Qəza dəniz və ya okean üzərində baş versə, gövdə paraşütlə suya enir və xilasedici qayıqlar açılır.

Sərnişinlərin yükü gövdənin alt hissəsində saxlanır.

Mühəndis inanır ki, bu layihə çox sayda insanın həyatını xilas edəcək: "Bütün dünyada mühəndislər daha təhlükəsiz təyyarə hazırlamağa çalışır, ancaq insan amiliylə bağlı heç nə edə bilmirlər. Bu layihə ilə insanlar daha təyyarə qəzalarında ölməyəcəklər".

Təyyarənin quyruq hissəsində təcili hallar üçün ehtiyat çıxışı da var.

## Yadigar söz

*Bertran Rassel,*
*ingilis mütəfəkkiri*

**Çox az insan başqa insanlara, millətlərə, fərqli fikirlərə nifrət etmədən xoşbəxt ola bilər.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Fevral | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 02 Fevral | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 03 Fevral | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 04 Fevral | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 05 Fevral | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 06 Fevral | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 07 Fevral | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 08 Fevral | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 09 Fevral | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 Fevral | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 Fevral | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 Fevral | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 Fevral | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 Fevral | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 Fevral | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 Fevral | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 Fevral | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 Fevral | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 Fevral | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 Fevral | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 Fevral | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 Fevral | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 Fevral | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 Fevral | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 Fevral | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 Fevral | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Sosial şəbəkələrdən asılılığın səbəbləri müəyyən edilib




Amerikalı psixoloqlar sosial şəbəkələrin insan həyatına təsirini araşdırıblar.

AZƏRTAC "dni.ru" saytına istinadən xəbər verir ki, tədqiqatçılar "Facebook" sosial şəbəkəsindən asılılığın formalaşmasının səbəblərini müəyyənləşdiriblər.

ABŞ-da keçirilmiş illik "NCA" konfransında müxtəlif ölkələrdən olan alimlər sosial şəbəkələrin insan həyatına təsirini müzakirə ediblər. Məlum olub ki, müəyyən fərdi xüsusiyyətlərə malik insanlar "Facebook" sosial şəbəkəsindən asılılığa daha meyillidirlər. Bu kateqoriyaya özləri haqda yüksək fikirdə olmayan insanlar daxildir. Alimlərin sözlərinə görə, sosial şəbəkədən asılılıq insanlara alkoqol və ya narkotik kimi mənfi təsir göstərmir. Həmçinin alimlər bu tip asılılıqdan əziyyət çəkən insanların daha yumşaq xarakterə və pis yaddaşa malik olduqlarını müəyyən ediblər.

## NO COMMENT



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894